4 sentyabr 2024 №65 (2130) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Kəlbəcərin yeni həyatı – dirçəlişin mənzərəsi

### Qədim yurd yerimiz işğaldan qurtuluşunun dördüncü ilində geniş tikinti meydanına çevrilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 2-də Kəlbəcər rayonuna səfər ediblər. Dövlətimizin başçısı və birinci xanım otuzillik işğaldan qurtuluşunun dördüncü ilini yaşayan qədim yurd yerimizdə həyata keçirilən layihələrlə tanış olublar. Yeni müəssisələrin açılışı olub, gələcək tikililərin təməli qoyulub.



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər şəhərində 524 ailəlik yaşayış kompleksinin tikinti sahəsində olublar. Burada görülən işlərlə bağlı məlumat verilib.

Bildirilib ki, bu yaşayış kompleksinin ümumi sahəsi 19,5 hektardır. Birinci mərhələdə buraya 201 ailə köçürüləcək. Bunun üçün kompleksdə dördmərtəbəli 6 bina tikilib. Binaların hər birində 27 mənzil mövcuddur.





Mənzillərin 54-ü ikiotaqlı, 72-si üçotaqlı və 36-sı dördotaqlıdır.

Dövlətimizin başçısı və birinci xanım yaşayış kompleksində hazır mənzillərə baxıblar.

Kompleksdə, həmçinin "townhouse" tipli ikimərtəbəli 39 ev də inşa olunub. Bu evlərin hər biri üçotaqlıdır.

Diqqətə çatdırılıb ki, ikinci mərhələdə kompleksə 323 ailənin köçürülməsi planlaşdırılır. Bunun üçün isə müxtəlif tipli dördmərtəbəli 16 çoxmənzilli yaşayış binası, "townhouse" tipli ikimərtəbəli 57 ev inşa olunacaq.

Kompleksdə sakinlərin rahat yaşayışı üçün hər cür şərait yaradılır. Ərazidə park, istirahət guşələri, sosial-məişət obyektləri, avtodayanacaqlar, velosiped yolları, uşaq oyun və idman meydançaları istifadəyə veriləcək, geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək.

Qeyd edək ki, Prezident İlham Əliyevin iştirakı ilə Kəlbəcər şəhərində ilk yaşayış məhəlləsinin təməli 2023-cü il mayın 27-də qoyulub. Yaşayış məhəlləsinin konsepsiyası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sifarişi ilə icra olunan Baş plan layihəsi çərçivəsində hazırlanıb.

***

Dövlətimizin başçısı Kəlbəcərə budəfəki səfəri zamanı şəhərdə ikinci yaşayış kompleksinin də təməlini qoyub.

Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Bəşir Hacıyev məlumat verib ki, kompleks 1,76 hektar ərazidə layihələndirilib və şəhərin Baş planına əsasən çoxfunksiyalı zonada yerləşir. Kompleksdə 3 və 5 mərtəbəli 8 yaşayış binasının inşası nəzərdə tutulur. Mənzillərin 56-sı ikiotaqlı, 56-sı üçotaqlı, 48-i isə dördotaqlı olacaq. Burada ümumilikdə 160 ailənin yaşaması planlaşdırılır. Burada evlərin və küçələrin işıqlandırılmasında yaşıl enerjidən də istifadə olunacaq.

***

Prezident İlham Əliyev sentyabrın 2-də Kəlbəcər rayonunun İstisu qəsəbəsinin təməlini qoyub.

Məlumat verilib ki, İstisu qəsəbəsi Kəlbəcərin qərb hissəsində yerləşir. Ümumi sahəsi 63,1 hektar olan qəsəbənin layihələndirilmə işləri mərhələli şəkildə aparılacaq. Baş plana əsasən, gələcəkdə burada 159 fərdi ev, "townhouse" tipli 71 ev (142 mənzil) və 180 mənzildən ibarət 10 bina tikiləcək.

Birinci mərhələdə salınacaq ərazinin sahəsi 39,2 hektar təşkil edir. Bu mərhələdə 159 fərdi evin inşası nəzərdə tutulur. Burada iki, üç, dörd və beşotaqlı fərdi evlər tikiləcək. Qəsəbəyə birinci növbədə 159 ailə köçürüləcək.

İstisu qəsəbəsində 352 şagird yerlik məktəb, 100 yerlik uşaq bağçası, inzibati bina, klub-icma mərkəzi, idman sağlamlıq mərkəzi, tibb məntəqəsi, bayraq meydanı, idman meydançası və digər zəruri obyektlər yaradılacaq.

Qeyd edək ki, tarixən İstisu qəsəbəsində əhalinin əsas məşğuliyyəti üzümçülük, taxılçılıq, heyvandarlıq və baramaçılıq olub. Müasir səviyyədə qurulacaq qəsəbənin perspektivdə rayonun yerli əhəmiyyətli mərkəzlərindən biri kimi inkişafı əsas məqsədlərdəndir.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər rayon sakinləri ilə görüşüblər. İllərin həsrətindən sonra ata-baba yurdlarına gələn insanlarla görüşdə duyğulu anlar yaşanıb.

*mövzuya dair əlavə: səhifə 2, 4*

## Xudavəng monastırı Azərbaycan tarixinin möhtəşəm abidəsidir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 2-də Kəlbəcər rayonunda Xudavəng monastır kompleksində olublar.



Mədəniyyət naziri Adil Kərimli dövlətimizin başçısına və birinci xanıma abidə haqqında məlumat verib.

Bildirilib ki, dünya əhəmiyyətli memarlıq abidəsi olan Xudavəng məbədi 1992–2020-ci illərdə ermənilərin təcavüzünə məruz qalıb. İşğal dövründə Erməni kilsəsinin dəstəyi və Ermənistan dövlətinin vəsaiti hesabına monastırda "bərpa" adı altında qanunsuz işlər görülüb. Arzu xatun, Böyük Həsən kilsələri və kompleksə daxil olan digər tikililər üzərində saxtalaşdırma əlamətləri olan əlavələr edilib, abidələrin bir çox hissələri vandalizmə məruz qalıb. Torpaqlarımız azad ediləndən sonra işğalçılarla bərabər monastırdakı erməni rahiblər abidələrdəki qədim freskaları xüsusi üsulla kəsib götürüb, qanunsuz olaraq Azərbaycan Respublikasının ərazisindən çıxarıblar.



Xudavəng monastır kompleksinin zəng qülləsində yanaşı qoyulmuş, bir-birinin üstündə iki dairəvi xonça və həyat ağacı şəklində xaç kompozisiyalı xaçdaşlar və kitabələr də işğal dövründə sökülərək talan edilib.

2020-ci ilin dekabr ayında İrəvanda keçirilən sərgidə Xudavəng monastır kompleksindən oğurlanmış zəng, daş kitabələr, freskalar, xalçalar və Azərbaycan Respublikasına məxsus digər mədəni irs nümunələri qanunsuz olaraq nümayiş etdirilib. Ermənilərin oğurlayaraq apardıqları bu artefaktlar daha sonra İtaliyanın bir neçə şəhərində "VII-XIII əsrlərdə erməni xristian kilsələrində freskalar" adı altında sərgilənib.

Qeyd edək ki, Azərbaycanın qədim memarlıq abidəsi və Qafqaz Albaniyası dövrünə aid dini məbəd kimi Xudavəng monastır kompleksinin min ildən artıq tarixi var. Monastırın bazilikası VIII–IX əsrlərdə, Arzu xatun kilsəsi XIII əsrdə inşa edilib.

## Filmlərimiz Venesiya festivalında nümayiş olunub

Xəbər verdiyimiz kimi, 28 avqust – 7 sentyabr tarixlərində 81-ci Venesiya Film Festivalı keçirilir. Festivalda Azərbaycan Respublikası Kino Agentliyinin (ARKA) rəhbərliyi də iştirak edir.




Azərbaycan kinematoqrafiyası tarixində ilk dəfə iki ekran işi – Vətən müharibəsi haqqında rejissor Emin Əfəndiyevin "Tənha insanın monoloqu" və XX əsrin görkəmli Azərbaycan memarları Mikayıl Hüseynov və Sadıq Dadaşov haqqında rejissor Şamil Əliyevin çəkdiyi "Yaradanlar" filmləri festival çərçivəsində nümayiş olunub.

Festival gedişində ARKA-nın keçirdiyi müsabiqədə qalib olmuş layihələrin xarici şirkətlərlə birgə istehsalı üçün prodüserlərin cəlb edilməsi ilə bağlı təqdimatlar olub. Rejissor İlqar Nəcəfin "Quşlar susanda" film layihəsi və ARKA-nın maliyyə dəstəyi ilə çəkiləcək digər film layihələri xarici prodüserlərə təqdim olunub.

Venesiya Film Festivalı xarici kino şirkətləri və prodüserlərlə təmaslar qurmaq baxımından olduqca əhəmiyyətli platformadır.

Qeyd edək ki, azərbaycanlı rejissor Hilal Baydarovun "Səpələnmiş ölümlər arasında" bədii filmi 2020-ci ildə keçirilən 77-ci Venesiya Film Festivalının əsas müsabiqə proqramında yer almışdı.

## "Şərq təranələri"nin baş mükafatı üçüncü dəfə Azərbaycana gəldi

### Bu dəfə Qran-prini "Simurq" muğam ansamblı qazandı

Azərbaycanın "Simurq" muğam ansamblı 26-30 avqust tarixlərində Özbəkistanın Səmərqənd şəhərində keçirilən XIII "Şərq təranələri" Beynəlxalq Musiqi Festivalının Qran-pri mükafatına layiq görülüb.

Özbəkistan Respublikası Mədəniyyət Nazirliyi, UNESCO, ICESCO və TÜRKSOY-un tərəfdaşlığı ilə gerçəkləşən builki festivalda 80-ə yaxın ölkə təmsil olunub.

Tanınmış xanəndə Mirələm Mirələmov və instrumental heyət – Zəki Vəliyev (tar), Elnur Mikayılov (kamança), Əməkdar artist Kamran Kərimov (nağara), İdris Hüseynov (ud) və Anar Vəlizadədən (balaban) ibarət "Simurq" muğam ansamblı möhtəşəm ifası ilə Azərbaycana üçüncü dəfə bu nüfuzlu festivalın baş mükafatını qazandırıb.




Ansambla festivalın heykəlciyini və Qran-prinin sertifikatını Özbəkistanın mədəniyyət naziri Ozodbek Nazarbekov və XIII "Şərq təranələri"nin beynəlxalq münsiflər heyətinin sədri Azərbaycanın Əməkdar artisti, Beynəlxalq Muğam Mərkəzinin direktoru Sahib Paşazadə təqdim ediblər. Qeyd edək ki, bu festivalın tarixində ilk dəfə Azərbaycan təmsilçisi beynəlxalq jürinin başçısı olub.

Sonra festivalın digər qaliblər də elan olunub. Türkmənistandan milli musiqi qrupu birinci yeri qazanıb. Qazaxıstanın "Atameken", Özbəkistanın "Maqom band" musiqi qrupları və Özbəkistan Dövlət Simfonik Orkestrinin Milli klassik ansamblı II yerə layiq görülüb.

Monqolustandan solo ifaçı Batbayar Batnyam, Yaponiyadan milli musiqi qrupu, solo müğənni Maşu Kamazaki və Rusiyanın "Northern Choir" musiqi qrupu festivalın üçüncüsü olub.

Özbəkistan Dövlət Simfonik Orkestrinin solisti Toştemur Şükürullayev səhnə performansına görə TÜRKSOY-un xüsusi mükafatı ilə təltif edilib.

Bildirək ki, festivalın Qran-pri mükafatı simvolik heykəlcik və 10 000 ABŞ dollarıdır. 1-ci, 2-ci və 3-cü yerlər üçün müvafiq olaraq 10 000, 7000 və 6000 dollar pul mükafatı verilir.

Xatırladaq ki, 1997-ci ildə əsası qoyulan "Şərq təranələri" festivalı iki ildən bir keçirilir. Ölkəmizdən xanəndə Simarə İmanova ilk festivalda, tarzən Sahib Paşazadə isə XI festivalda (2017) Qran-pri mükafatına layiq görülüblər. Müxtəlif illərdə ölkəmizdən bir neçə musiqiçi də festivalın mükafatçısı olub.



Milli Dram Teatrının premyerası Sankt-Peterburq səhnəsində

*səh. 5*



Antalyada Azərbaycan günündə sərgi təşkil edilib

*səh. 8*

# Kəlbəcər şəhərində müasir təhsil kompleksi inşa olunur

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 2-də Kəlbəcər Şəhər Təhsil Kompleksində aparılan işlər və bu il açılması planlaşdırılan modul tipli məktəbin layihəsi ilə tanış olublar.**



Elm və təhsil naziri Emin Əmrullayev görülən işlərlə bağlı məlumat verib.

Bildirilib ki, ümumi sahəsi 2,2 hektardan çox olan kompleksin ərazisində 528 şagird yerlik məktəb, 80 yerlik uşaq bağçası, peşə emalatxanaları yaradılacaq, STEAM zona, məktəbdənkənar hazırlıq məkanı və digər zəruri obyektlər təşkil ediləcək. Məktəbdə kitabxana, yeməkxana, akt zalı, yataqxana, idman zalı və digər zəruri otaqlar yaradılacaq.

Modul tipli məktəbin layihəsi ilə tanışlıq zamanı qeyd edildi ki, ümumi sahəsi 420 kvadratmetr olacaq binada 2 inzibati otaq və 9 sinif otağı yerləşəcək.

Qeyd edək ki, işğaldan azad edilmiş ərazilərdə təhsilin inkişafı ilə bağlı tədbirlər xüsusi əhəmiyyətə malikdir. Kəlbəcərdə ən müasir standartlara uyğun inşa olunan təhsil kompleksi də işğaldan azad edilmiş ərazilərin bərpası prosesində təhsil infrastrukturunun qurulmasına xüsusi diqqətin təzahürüdür.



Kəlbəcər rayonunda ilk orta məktəb 1924-cü ildə fəaliyyətə başlayıb. İşğaldan (1993) əvvəl rayonda 96 ümumtəhsil məktəbi, o cümlədən 46 tam orta, 42 ümumi orta, 8 ibtidai məktəb fəaliyyət göstərib. Bundan əlavə, rayonda bir texniki peşə məktəbi, iki əyani-qiyabi məktəb, səkkiz məktəbdənkənar və dörd məktəbəqədər təhsil müəssisəsi vardı. Erməni işğalı dövründə dağıdılmış təhsil infrastrukturunun qurulması istiqamətində işlər davam etdirilir.

***

Prezident İlham Əliyev sentyabrın 2-də Kəlbəcər şəhərində inzibati binanın təməlini qoyub.

İnzibati binanın inşası üçün 2,4 hektardan çox ərazi nəzərdə tutulub. Bu ərazi Kəlbəcərin ictimai mərkəzi ilə şəhər parkının arasında yerləşir. İnzibati binanın yerləşdiyi ərazinin şimal hissəsi pilləli landşaft elementləri və şəhər parkının relyefi ilə birləşir. də Baş plan üzrə şəhərin inzibati mərkəzində 2 inzibati binanın inşası nəzərdə tutulub. Hər iki bina müasir üslubda layihələndirilib. Tikinti işlərinə 2025-ci ildə başlanılması planlaşdırılır.

# Azərbaycanla Ermənistan arasında prosesin irəliləməsi üçün çərçivə yaradılır

**Hazırda tərəflər arasında (Ermənistan ilə Azərbaycan) reqlament razılaşdırılıb. Razılaşmaya uyğun olaraq zəmin və çərçivə yaradılır ki, delimitasiya prosesi aparılsın. Qarşılıqlı anlaşma şəraitində proses bundan sonra da ikitərəfli əsasda davam edəcək. Sərhədlərin delimitasiya prosesi sırf ikitərəfli xarakter daşıyır.**




Bu fikirləri jurnalistlərə açıqlamasında Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyası Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev söyləyib.

"Prosesin iki dövlət arasında sülh, qarşılıqlı anlaşma şəraitində gedişatını nəzərə alaraq hesab edirik ki, artıq Avropa İttifaqının sərhəd missiyasının Ermənistan tərəfdən Azərbaycan sərhədi yaxınlığında fəaliyyət göstərməyinə ehtiyac yoxdur. Bu missiyanın da fəaliyyətinə xitam verilməsinin zamanı yetişib", – deyə o bildirib.

Xatırladaq ki, avqustun 30-da Azərbaycan ilə Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının məlumatı yayılıb. Məlumata görə, iki ölkə arasında sərhədin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın 2024-cü il aprelin 19-da imzalanmış 8-ci görüşünün protokoluna uyğun olaraq, komissiyaların birgə fəaliyyəti haqqında Əsasnamənin razılaşdırılması ilə bağlı işlər yekunlaşıb.

Komissiyaların birgə fəaliyyəti haqqında Əsasnamə müvafiq qaydada 2024-cü il avqustun 30-da imzalanıb. Azərbaycan Respublikası və Ermənistan Respublikası dövlətdaxili prosedurların keçirilməsinə başlayıblar.

Ermənistanın Baş naziri Nikol Paşinyanın son fikirlərinə toxunan Prezident köməkçisi deyib ki, bu açıqlamalarda kifayət qədər ziddiyyətli, həqiqəti əks etdirməyən məqamlar var: "Ermənistan militarizasiya siyasətini həyata keçirir, bu, faktdır. Ermənistanın militarizasiya siyasətini həyata keçirməsində ona bir sıra Qərb ölkələri, xüsusilə Fransa tərəfindən ciddi dəstək verilir. Bu, Cənubi Qafqaz regionunda gərginliyin yaradılmasına xidmət edir".

# "İstisu" – can dərmanı

## Məşhur mineral su yenidən sağlığımıza fayda verəcək

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 2-də Kəlbəcər rayonunda "İstisu" mineral su zavodunun açılışında iştirak ediblər.**

Prezidentin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına və birinci xanıma zavod barədə məlumat verib.

Bildirilib ki, işğaldan azad edilən Kəlbəcər rayonunda yenidən qurulan "İstisu" mineral su zavodu bölgənin müstəsna keyfiyyəti və sağlamlığa faydaları ilə tanınan termal suyunu illər sonra yenidən istehlakçılara təqdim edir.

Qeyd edək ki, 1976-cı ildən etibarən Kəlbəcər rayonunda "İstisu" mineral suyunun istehsalına başlanılıb. Nadir və faydalı mineral tərkibə malik "İstisu" təbii mineral suyu geniş coğrafiyada şöhrət tapıb.

Prezident İlham Əliyev zavodu işə salıb.

Mənbəyini Azərbaycanın Kəlbəcər rayonunun mənzərəli dağlıq bölgəsində, dəniz səviyyəsindən 1600 metrdən çox yüksəklikdə yerləşən termal su yataqlarından götürən və təbii halda 60°C-dən yuxarı temperaturda çıxan "İstisu" mineral suyu regionun minerallarla zəngin nadir suyu kimi xarakterizə olunur. Torpaqlarımızın Ermənistan tərəfindən işğalı ilə əlaqədar otuz il ərzində "İstisu" təbii mineral suyunun istehsalı dayanıb.









Təməli 2022-ci il iyunun 26-da Prezident İlham Əliyev tərəfindən qoyulan "İstisu" mineral su zavodunda işlər tam başa çatdırılıb.

Dövlətimizin başçısı və birinci xanım zavodda istehsal prosesi ilə tanış olublar.

Zavod müasir avtomatlaşdırılmış sudoldurma xətləri və robotlaşdırılmış anbar idarəetmə sistemləri ilə təchiz edilib. İstehsal xətləri Almaniyanın "Krones" şirkəti tərəfindən təchiz edilib və quraşdırılıb. Ən son texnologiyaların tətbiqi nəticəsində zavodda yüksəkkeyfiyyətli mineral su istehsal edilməklə yanaşı, suyun təbii xüsusiyyətlərini qoruyub saxlamaq da mümkün olub. "İstisu" zavodunun illik istehsal gücü 100 milyon şüşə butulkadan artıqdır.

Zavodda istehsal olunan su həm keyfiyyəti, həm də müasir standartlara cavab verməsi ilə seçilir. Beynəlxalq təsnifat meyarlarına görə, Kəlbəcər rayonunda yerləşən təbii mineral su "İstisu" – natrium bikarbonat və sulfatla zəngin mineral su kimi təsnif edilir. Tərkibində olan kalsium, maqnezium, bikarbonat, sulfat və digər faydalı elementlər orqanizmə müsbət təsir göstərir.

"İstisu" təbii mineral suyu, eyni zamanda yerli və beynəlxalq keyfiyyət və təhlükəsizlik standartlarına cavab verir və AZS 216–2006, İSO 9001:2015 və İSO 22000:2018 standartlarına uyğun olaraq sertifikatlaşdırılıb.

İkinövbəli iş rejimində fəaliyyət göstərəcək müəssisədə təxminən 100 nəfər işlə təmin ediləcək. İşçilərin əksəriyyəti Kəlbəcər və Laçın rayonlarının sakinləridir.

"İstisu" mineral su zavodu ətraf mühitin qorunmasına da töhfə verir. Mineral su istehsalında əsas səylər uzunmüddətli uğur və rifahın əsasını təşkil edən resurslardan davamlı istifadəyə, ekoloji cəhətdən təmiz istehsal prosesinə və təbiətin mühafizəsinə yönəlib. Zavodda tullantıların miqdarını minimuma endirməyə, həmçinin elektrik enerjisi resurslarından səmərəli istifadə etməyə imkan verən müasir texnologiyalar tətbiq olunur.

***

Prezident və birinci xanım "İstisu" müalicə-istirahət kompleksində aparılan tikinti işləri ilə də tanış olublar.

Bildirilib ki, 1927-ci ildə fəaliyyətə başlayan bu sanatoriya Azərbaycanda ittifaq (keçmiş SSRİ) əhəmiyyətli ikinci böyük kurort hesab edilirdi. Kompleksin ərazisində üç yataq korpusu, bir müalicəvi vanna xidməti binası, bir poliklinika korpusu fəaliyyət göstərirdi. Sovet dönəmində kurort-sanatoriya kompleksi ildə 50 min nəfəri qəbul etmək imkanına malik olub. Buraya əsasən həzm sistemi xəstəliklərinin müalicəsi üçün müraciətlər edilirdi.

Bərpa edilən kompleksin ümumi sahəsi 32 min kvadratmetr olacaq. Burada 145 nömrə, eləcə də 10 kottec yaradılacaq.

Kompleksdəki SPA mərkəzində termal hamam, müalicəvi vanna, həkim otağı, o cümlədən müxtəlif müalicəvi hovuzlar, prosedur otaqları, təzyiqli su terapiyası, masaj, buxar, duz otaqları, gözəllik salonu olacaq.

"Aşağı İstisu" mənbəyindən alman mütəxəssislər tərəfindən nümunələr götürülüb, suyun analizi və testi həyata keçirilib. Aparılan analizlər və balneoloji rəylərə əsasən, "İstisu" təbii mineral suyu fizioloji, metabolik və müalicəvi təsirlərə malikdir. Bu isə mədə-bağırsaq traktının funksional pozğunluğunun müalicəsi və həzm funksiyasının stimullaşdırılması, yaşlılarda natrium və maye çatışmazlığının, ortostatik tənzimləmə pozğunluğunun, kalsium oksalat, sistin və sidik turşusu daşlarının profilaktikası, uşaqlarda diş kariyesinin profilaktikası, eləcə də böyüklər üçün dəstəkləyici təsir baxımından çox faydalıdır.

# Milli Məclisə seçkilərin ilkin nəticələri

**Sentyabrın 1-də keçirilən Milli Məclisə növbədənkənar seçkilərin nəticəsi artıq məlumdur. Mərkəzi Seçki Komissiyası (MSK) sentyabrın 2-də seçkilərin ilkin nəticələrini elan edib.**

125 seçki dairəsi üzrə lider namizədlərin siyahısı, eləcə də hər dairədə namizədlərin qazandığı səs sayı və digər məlumatlar MSK-nın saytında yerləşdirilib.

Qeyd edək ki, parlament seçkilərində 6 milyon 422 min vətəndaş səsvermə hüququna malik idi. MSK-nın məlumatına görə, səsvermədə iştirak göstəricisi 37 faiz olub.

Milli Məclisə seçkilər 125 dairə üzrə 6478 məntəqədə keçirilib.

Parlamentdəki 125 yer uğrunda 990 namizəd mübarizə aparıb. Onlardan 305 nəfərin namizədliyi 25 siyasi partiya tərəfindən irəli sürülüb. 684 nəfərin namizədliyi öz təşəbbüsü ilə, 1 nəfərin namizədliyi təşəbbüs qrupu tərəfindən irəli sürülüb.




Növbədənkənar parlament seçkilərinin ilkin nəticələrinə gəlincə, hakim Yeni Azərbaycan Partiyasının (YAP) VII çağırış Milli Məclisdə 68 yer deputatı olacaq. Əvvəlki parlamentdə YAP-ı təmsil edən deputat sayı 69 idi.

YAP-dan başqa parlamentdə daha 10 siyasi partiya (əvvəlki parlamentdə 9 idi) təmsil olunacaq. O cümlədən Vətəndaş Həmrəyliyi Partiyasının (VHP) 3, Ədalət, Hüquq, Demokratiya Partiyasının (ƏHD) 2, Respublikaçı Alternativ Partiyası (REAL), Azərbaycan Milli İstiqlal Partiyası (AMİP), Milli Cəbhə Partiyası (MCP), Böyük Azərbaycan Partiyası (BAP), Azərbaycan Demokratik Maarifçilik Partiyası (ADMP), Böyük Quruluş Partiyası (BQP), Ana Vətən Partiyası (AVP) və Demokratik İslahatlar Partiyasının (DİP) hərəyə bir deputatı olacaq.

Əvvəlki parlamentdə təmsil olunan Vəhdət Partiyasından (VP) bu dəfə seçkilərdə uğur qazanan olmayıb. I və II çağırış Milli Məclisdə deputatı olmuş AMİP iyirmi il sonra yenidən, BAP isə yaranmasından bu yana ilk dəfə parlamentdə təmsil olunmaq imkanı əldə edib.

Seçki dairələri üzrə lider namizədlərdən 44-ü heç bir partiyanı təmsil etmir. Əvvəlki parlamentdə bitərəflərin sayı 41 nəfər olub.

İlkin nəticələrə görə, dairələr üzrə ən çox səs toplayan namizədlərin ən gəncinin 29, ən yaşlısının isə 84 yaşı var.

Deputat mandatı qazanacaq şəxslər arasında 10-dan çox dövlət məmuru, eləcə də diplomatik xidmətdə çalışanlar var. Müvafiq qanunvericiliyin tələblərinə əsasən, onlar deputatlıq statusu təsdiq ediləndən sonra tutduqları vəzifələrdən istefa verəcəklər.

Seçkilərin ilkin nəticələrinə görə, VII çağırış Milli Məclisdə 26 qadın deputatın olacağını demək olar. Bu, Azərbaycanın müstəqillik tarixində qadınların ən çox təmsil olunduğu parlament olacaq. Bundan öncəki parlamentdə 22 qadın deputat olub. 2015-ci ildə isə 21 qadın deputat seçilmişdi.

# MYS üzrə xaricdə təhsil üçün sənəd qəbulu davam edir

**Mədəniyyət Nazirliyinin "Mədəniyyət və yaradıcı sənayelər (MYS) üzrə xüsusi təqaüd proqramı" çərçivəsində bakalavriat və magistratura səviyyələrində xaricdə təhsilin maliyyələşdirilməsi ilə bağlı 15 avqust tarixində elan olunan sənəd qəbulu davam edir.**

Yaşı 15-dən yuxarı olan, yaradıcı potensialını inkişaf etdirmək, MYS üzrə əmək fəaliyyəti ilə məşğul olmaq istəyən, xarici ali təhsil müəssisələrinə qəbul olunmuş və ya öz hesabına təhsilini davam etdirən Azərbaycan Respublikasının vətəndaşları təhsil xərclərinin qarşılanması məqsədilə təqaüd proqramına müraciət edə bilərlər.

Bakalavriat və magistratura səviyyələri üzrə aşağıdakı ixtisaslaşma istiqamətlərində xaricdə təhsilin maliyyələşdirilməsi həyata keçirilir: audiovizual (musiqi, kino (o cümlədən animasiya), videoqrafiya və fotoqrafiya), dəb sənəti, dizayn, kuratorluq, memarlıq, tədbirlərin təşkili, mədəni və yaradıcı sahə üzrə menecment, nəşriyyatlarla işin təşkili, oyun sənayesi, teatr, komediya və performans, yaradıcı texnologiyalar.

Sənəd qəbulu 15 sentyabr 2024-cü il tarixinədək davam edəcək.




Təqaüd proqramı ilə bağlı əlavə məlumatı https://culture.gov.az/az/mm/15717 linki vasitəsilə əldə etmək olar. Həmçinin aşağıda qeyd olunan telefon nömrəsi və e-poçt ünvanı ilə əlaqə saxlamaq mümkündür: 012 525 11 28 (daxili: 102 və ya 103); scholarship@creative.az

# Türkiyənin "LAGOM" kvarteti Bakıda ilk dəfə çıxış edəcək



Sentyabrın 9-da Beynəlxalq Muğam Mərkəzində Türkiyənin "LAGOM" simli kvartetinin konserti olacaq.

"LAGOM" kvarteti Azərbaycan Bəstəkarlar İttifaqının dəvəti ilə ilk dəfə ölkəmizdə çıxış edəcək.

Kvartet Bilkənt Universitetinin (Ankara) 2021-ci ildə məzun olan gənc musiqiçiləri tərəfindən təşkil olunub. Türkcəyə İsveç dilindən keçən "Lagom" sözü nə az – nə çox, tam miqdarında, balansın saxlanması mənasını verir.

Ansamblın rəhbəri Bilkənt Konservatoriyasının professoru Toğrul Qəniyevin tələbəsi olmuş azərbaycanlı violin ifaçısı Hüseynəli Hüseynəliyevdir. Kvartetin hazırkı tərkibinə ikinci violin ifaçısı qırğızıstanlı Aliyə Okeyeva, türkiyəli musiqiçilər – viola ifaçısı Semih Tercan və violonçel ifaçısı Yaşar Koroğlu daxildir.

Qeyd edək ki, bədii rəhbərdən başqa ansamblın solistləri müxtəlif ölkələrin musiqiçilərindən ibarət olaraq tez-tez dəyişilir. Kvartetin repertuarında dünya musiqisinin məşhur nümunələri yer alır.

"LAGOM" kvarteti dəfələrlə Xalq artisti, professor Firəngiz Əlizadənin də əsərlərini ifa edib. Bakı konsertinin proqramına dünyaca məşhur bəstəkarın iki əsəri – "Muğamsayağı" və "Rəqs" daxildir. Bundan əlavə, konsertdə tanınmış türkiyəli bəstəkarlar, hazırda Amerikada yaşayan Kemran İnce və Fazil Sayın əsərləri səslənəcək.

# 11 tələbə 11 davamçı deməkdir

## Bülbül vokal məktəbi yeni tələbələrini seçib

Azərbaycan professional vokal sənətinin banisi, SSRİ Xalq artisti Bülbülün ənənələrini davam etdirən Bülbül vokal məktəbinə yeni tələbələrin seçimi başa çatıb.



Əməkdar artist Ramil Qasımovun yaratdığı məktəbdə təhsil almaq üçün müraciət etmiş 367 nəfərdən 35-i növbəti mərhələyə keçib. Avqust ayının sonlarında keçirilmiş dinləmələrdə yeni tədris ili üçün 11 tələbə seçilib.

Tədirəlayiq haldır ki, Bülbül vokal məktəbinin növbəti tədris ili üçün elan etdiyi müsabiqəyə Azərbaycanın müxtəlif bölgələrindən (Gəncə, Zaqatala, Mingəçevir, Şəki və s.) iştirakçılar müraciət edib.

Qeyd edək ki, artıq bir ildir ödənişsiz əsaslarla fəaliyyət göstərən məktəbin tələbələri konsert proqramlarında, festivallarda çıxış ediblər. Vokal məktəbində tədris müddəti iki ildir.

Məktəbdə vokal sənətinin sirlərini öyrənənlərdən artıq tələbə adını qazananlar da var. Bu günlərdə Ərşad Heydərov və Nəzrin Mansırlı Azərbaycan Milli Konservatoriyasına (milli vokal), Atilla Məmmədov Bakı Musiqi Akademiyasına (akademik vokal) qəbul olunublar.

**Gülcahan**



Yuğ Dövlət Teatrının kollektivi yeni mövsümün başlanması ərəfəsində, sentyabrın 3-də media nümayəndələri ilə görüşdü.

# İki yubileylə yeni mövsümə

## "Yuğ"çular yaradıcılıq planlarından və əsas problemlərindən danışdılar

Teatrın direktoru İslam Həsənov, baş rejissor Mikayıl Mikayılov, ədəbi hissə müdiri Elçin Cəfərov, rejissorlar Gümrah Ömər, Tural Mustafayev, Günay Səttar, aktyorlar Məmməd Səfa Qasımov və Zümrüd Qasımovanın iştirakı ilə keçirilən mətbuat konfransında əvvəlcə keçən mövsümdə reallaşmış layihə və premyeraları əks etdirən videoçarx təqdim edildi.

Diqqətə çatdırıldı ki, yeni mövsüm "Yuğ"un yaradıcısı, mərhum rejissor və pedaqoq Vaqif İbrahimoğlunun 75 illik yubileyi və teatrın yaranmasının 35 illiyi ilə əlamətdar olacaq.

Vaqif İbrahimoğlu psixosof poetikası əsasında yaratdığı (Gümrah Ömərin dediyi kimi, ilkin məqsədi milli teatr konsepsiyası yaratmaq olub) teatrını həmişə ideya və yaradıcılıq mərkəzi kimi görmək istəyib və bacardığı qədər bu missiyanı reallaşdırmağa nail olub. Ötən müddətdə "Yuğ" milli teatr ənənələrimizə köklənərək öz dəst-xəttini yaradıb.

Yubiley tədbirlərinin bir hissəsi olaraq iki kitab nəşr ediləcək: biri Vaqif İbrahimoğlunun yaradıcılıq yolundan, digəri isə psixosof poetikasından bəhs edir.

Mətbuat konfransında yeni mövsümdə qoyulacaq bəzi tamaşalar haqqında da məlumat verildi. "Yuğ"çular tamaşaçılarını Gümrah Ömərin quruluşunda "Gülüş akademiyası", Tural Mustafayevin yozumunda "Əziz ata", Ruslan İsmayılovun təqdimatında "Arqon" tamaşaları ilə sevindirməyə hazırlaşırlar. Mövsüm ərzində digər premyeralar da nəzərdə tutulub.

Teatrın repertuarında olan "Asılqan" tamaşasının (rejissor Əbdülqəni Əliyev) heyəti oktyabrın əvvəllərində Estoniyaya qastrol səfərinə yollanacaq. Həmçinin Gürcüstan və Rusiya rejissorları ilə nəzərdə tutulan yaradıcılıq mübadiləsi yeni teatr hadisələrini gözləməyə zəmin verir.

"Yuğ" teatrının gerçəkləşdirməyə hazırlaşdığı layihələr arasında süni intellektlə bağlı ideya da var. Bütün bu yaradıcılıq prosesi isə təbii ki, müvafiq iş şəraiti tələb edir.

Mətbuat konfransında kollektivin daha çox vurğuladığı məsələ də teatrın doqquz ildən bəri A.Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının binasında bir otağa sığınması oldu. Çıxışçılar Kukla Teatrının bütün kollektivinə istiqanlı münasibətə görə minnətdarlıq edərək eyni zamanda mövcud şəraitin (daha doğrusu, şəraitsizliyin) yaradıcı proses üçün maneə törətməsini də xüsusi qeyd etməyin artıq olduğunu bildirdilər. Sonda bir daha belə ümid ifadə edildi ki, mədəniyyət salnaməmizdə məxsusi yeri olan Yuğ Dövlət Teatrı yaxın zamanda müvafiq bina ilə təmin olunacaq.

**Samirə**

# Ölkəmiz V Dünya Köçəri Oyunlarında təmsil olunacaq

8-13 sentyabr tarixlərində Qazaxıstanın Astana şəhərində V Dünya Köçəri Oyunları keçiriləcək. UNESCO-nun himayəsi altında təşkil olunacaq oyunlara 85-dən çox ölkədən 2000-dək nümayəndənin qatılması gözlənilir.

Proqrama atçılıq yarışları, güləş, ənənəvi oxatma kimi 20 əsas idman növü üzrə yarışlar daxildir. Oyunlarda idmançılarla yanaşı, mədəniyyət və elm nümayəndələri də qatılacaq.

V Dünya Köçəri Oyunlarında ölkəmizdən "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin nəzdində fəaliyyət göstərən Ənənəvi İncəsənət Mərkəzinin əməkdaşları iştirak edəcəklər.




Onlar Türk Mədəniyyəti və İrsi Fondunun dəstəyi ilə beynəlxalq tədbirə qatılacaqlar.

Astanada Azərbaycanın keramika, batika, zərgərlik, taxta və dekorativ rəngkarlıq və s. sənət növləri nümayiş olunacaq.

Oyunlar çərçivəsində etnomədəni irsin təbliği məqsədilə elmi konfrans və mədəni tədbirlər də nəzərdə tutulur.

UNESCO-dan bildirilib ki, Dünya Köçəri Oyunları təşkilatın idman vasitəsilə sağlamlığın və rifahın yaxşılaşdırılmasına yönəlmiş "Həyat üçün addımla" təşəbbüsünə töhfə verir, layihə həmçinin qeyri-maddi mədəni irsin qorunması məqsədlərinə uyğundur.

Tədbir çərçivəsində UNESCO-nun Almatıdakı regional ofisi tərəfindən qadınların idmanda roluna həsr olunan beynəlxalq elmi-praktik konfrans da təşkil ediləcək.

**Lalə**

# "Mayot. Ölüm adası" filminin təqdimatı

Sentyabrın 2-də Nizami Kino Mərkəzində Qəmər Adaları İttifaqının Mayot adasına həsr edilmiş qısametrajlı filmin təqdimatı olub.

"Mayot. Ölüm adası" adlı filmin təqdimatından əvvəl "CBC TV" kanalının böyük redaktoru Gülzar Mustafayeva ekran əsərinin əhəmiyyətindən, hazırlanma prosesindən danışıb.

Bildirib ki, bu, "CBC TV" kanalının hazırladığı sənədli filmdir. Ekran əsərinin hazırlanmasında xarici həmkarlarımız da bizə yaxından kömək göstəriblər.

25 dəqiqəlik ekran əsəri Mayot adasında yaşayan yerli əhalinin taleyi haqqındadır və Fransanın müstəmləkəçilik siyasəti nəticəsində onların üzləşdiyi çətinliklərdən, dinlərindən, dillərindən, adət-ənənələrindən məhrum edilməsindən söz açır. Onlar öz ölkələrində hüquqsuz yaşadıqları halda Fransadan gələn fransız vətəndaşları Mayot adasında istədiklərini edirlər.

Mayot adasının müstəqilliyi uğrunda Mübarizə Komitəsinin üzvü Ahmed Tabet jurnalistlərə bildirib ki, Mayot da digər müstəmləkələr kimi üzləşdiyi işğala son qoyulmasını istəyir: "Bu xüsusda Azərbaycan və Bakı Təşəbbüs Qrupunun fəaliyyətini yüksək qiymətləndirirəm. Azərbaycan özünü dünyada neokolonializmlə mübarizə aparan dövlətlərə kömək edən bir ölkə kimi tanıdıb. Bakıya bu mövzuda konfransda iştirak etmək üçün gəlmişik".

Təqdimat mərasimində çıxış edən Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov bildirib ki, Fransanın neokolonial siyasətindən əziyyət çəkən müstəqil Qəmər Adaları İttifaqı dövləti, habelə Fransa tərəfindən işğal edilmiş Qəmər adalarının tərkib hissəsi olan Mayot adasının ictimai-siyasi xadimləri, qeyri-hökumət təşkilatlarının rəhbərləri Bakıda bir araya gəliblər. Səfər çərçivəsində onlar bir sıra görüşlər keçirəcəklər.

Abbas Abbasov filmin ərsəyə gəlməsinə görə yaradıcı heyətə təşəkkür edib.

Sonra film nümayiş olunub.

Filmdə Qəmər arxipelaqının çağdaş dövrdə üzləşdiyi çağırışlar və işğalın nəticələri diqqətə çatdırılır. Fransanın işğal etdiyi Mayot adasında yoxsulluq səviyyəsində yaşayan yerli sakinlərlə buraya köçürülmüş zəngin fransızlar arasında həyat səviyyəsinin fərqi filmdə aydın şəkildə göstərilir.




***

Qeyd edək ki, sentyabrın 3-də Bakıda keçirilən "Qəmər Adaları İttifaqının Mayot adasının Fransa tərəfindən qeyri-qanuni işğalı" mövzusunda beynəlxalq konfrans keçirilib. Bakı Təşəbbüs Qrupunun səyləri ilə gerçəkləşən konfransın yekunlarına dair bəyanat qəbul edilib.

# "Yüksəliş"in qaliblərinə Mədəniyyət Nazirliyi sistemində məsul vəzifələr verilib

Mədəniyyət Nazirliyinin tabeliyində Kino Agentliyi Hüquq və insan kapitalının idarə edilməsi şöbəsinin müdiri vəzifəsinə və Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin (MEMİM) direktor müavini vəzifəsinə təyinat olub.

Kino Agentliyi Hüquq və insan kapitalının idarə edilməsi şöbəsinin müdiri vəzifəsinə Orxan İsgəndərov, MEMİM-in direktor müavini vəzifəsinə isə Seymur Hüseynov təyin edilib.

Hər iki şəxs dördüncü "Yüksəliş" müsabiqəsinin qaliblərididir.

Dördüncü "Yüksəliş" müsabiqəsinin finalı 2024-cü il 19-21 iyul tarixlərində keçirilib. Müsabiqənin şərtlərinə əsasən, 20 qalibin seçilməsi planlaşdırılsa da, 9 nəfər eyni nəticəni göstərdiyi üçün onların hər birinin səriştə və bacarıqlarının ədalətli qiymətləndirilməsi baxımından qalib elan olunmasına qərar verilib. Beləliklə, builki "Yüksəliş" müsabiqəsində ən yüksək bal toplayan 25 nəfər qalib adını qazanıb.

# Azərbaycanlı dirijor MDB layihəsində

Azərbaycanın musiqi sülaləsinin nümayəndəsi dirijor Murtuza Bülbül Rusiya və Türkmənistandan olan həmkarları ilə birlikdə MDB-nin Gənclər Simfonik Orkestri və Başqırdıstanın Dövlət Akademik Simfonik Orkestri ilə birgə konsertlə çıxış edəcək.




Konsert sentyabrın 17-də Başqırdıstanın (Rusiya Federasiyası) Ufa şəhərində, MDB ölkələri Humanitar Əməkdaşlıq üzrə Dövlətlərarası Fondunun layihəsi çərçivəsində təşkil olunacaq.

Azərbaycanlı dirijor Rusiyanın Xalq artisti Sergey Skripka, Dmitri Kryukov, Konstantin Naumenko, Rəsul Klıçov kimi dirijorlarla bir səhnəni bölüşəcək.

Murtuza Bülbül görkəmli opera müğənnisi, SSRİ Xalq artisti Bülbülün nəvəsi, bəstəkar və müğənni, Azərbaycanın Xalq artisti Polad Bülbüloğlunun oğludur.

# Türk respublikaları incəsənət universitetlərinin ittifaqı yaradılır

Xəbər verdiyimiz kimi, Özbəkistanın Səmərqənd şəhərində XIII "Şərq tərənələri" Beynəlxalq Musiqi Festivalı çərçivəsində 27-28 avqust tarixlərində "Şərq xalqlarının musiqi mədəniyyəti: qloballaşma şəraitində yaradıcı harmoniya prinsipləri" mövzusunda beynəlxalq elmi-praktik konfrans da keçirilib.

Konfrans zamanı Türkiyə, Qazaxıstan, Azərbaycan, Özbəkistan və Qırğızıstanın incəsənət profilli universitetləri rektorlarının görüşü olub. Toplantıda türk respublikaları arasında incəsənət təhsili sahəsində əməkdaşlığın perspektivləri müzakirə olunub.

İclasın yekunu olaraq TÜRKSOY-un nəzdində "Türk dövlətlərinin incəsənət universitetləri ittifaqı"nın yaradılması haqqında qərar qəbul edilib. Bildirilib ki, bu qurumun formalaşdırılması ilə qardaş respublikaların incəsənət universitetləri arasında inteqrasiya prosesləri sürətlənəcək, qeyd olunan sahə üzrə təhsil ocaqlarının əlaqələri dərinləşəcək.

# "İqlim sənin əlindədir" kitabının təqdimatı keçirilib

## Ukraynalı müəlliflərin Azərbaycan dilinə tərcümə olunmuş kitabının təqdimatı

F.Köçərli adına Respublika Uşaq Kitabxanasında ukraynalı müəlliflər Katerina Terletska və Dmitro Kuzmenkovun Azərbaycan dilinə tərcümə olunmuş "İqlim sənin əlindədir" kitabının təqdimatı keçirilib.



Tədbirdə Ukraynanın Bakıdakı səfiri Yuri Qusev (Husyev), Ukrayna Ali Radasının deputatı Sergey (Serhiy) Naqornyak, Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov, Mədəniyyət Nazirliyinin əməkdaşı Kəmalə Əliyarova, "Hədəf" Şirkətlər Qrupunun direktoru Şəmil Sadiq, Ukraynadan ölkəmizdə qonaq olan uşaqlar və Bakı məktəbliləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan kitabxananın direktoru Əməkdar mədəniyyət işçisi Şəhla Qəmbərova qeyd edib ki, kitab Prezident İlham Əliyevin sərəncamı ilə ölkəmizdə elan edilən "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində uşaq və yeniyetmələrin maarifləndirilməsinə töhfə verəcək.

Səfir Yuri Qusev Ukrayna dilindən Azərbaycan dilinə tərcümə olunan kitabın, eyni zamanda kitabxanada "Ukrayna kitab rəfi"nin təqdimatına görə təşəkkürünü bildirib. O, bundan sonra da Ukrayna-Azərbaycan dostluğunun inkişafı üçün çalışacaqlarını deyib.

S.Naqornyak isə bildirib ki, nəşr uşaqlar üçün eksperimentlər, ekologiyanı qorumaqla bağlı bilikləri özündə əks etdirir. "Biz inanırıq ki, kitab bu ilin noyabr ayında Bakıda keçiriləcək COP29 tədbiri üçün yaxşı bir töhfədir", – deyə o vurğulayıb.

Şəmil Sadiq kitab haqqında məlumat verib. Qeyd olunub ki, kitab "Hədəf nəşrləri" tərəfindən Ukrayna Tərcümə İnstitutunun dəstəyi ilə nəşr edilib. Kitabda iqlim dəyişikliklərini anlamaq üçün 17 təcrübə təqdim olunub.

Sonda Respublika Uşaq Kitabxanasında Ukrayna uşaq ədəbiyyatı əsasında hazırlanmış kitab sərgisinə baxış keçirilib.

№65 (2130)
4 sentyabr 2024
www.medeniyyet.az

# Azad torpaqlarda infrastruktur layihələri

## Kəlbəcərdə yol və su elektrik stansiyaları



Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 2-də Kəlbəcər rayonuna səfər ediblər.

Dövlət başçısı və birinci xanım Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolu layihəsi çərçivəsində inşa olunan 4-cü tuneldə və bu yolun 15,2 kilometrlik hissəsində görülən işlərlə tanış olublar.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbəri Saleh Məmmədov görülən işlər barədə məlumat verib.

Bildirilib ki, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası layihəsi çərçivəsində Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunun tikintisi sürətlə davam etdirilir. Bu istiqamətdə mövcud yolun uzunluğu 100, yeni yolun uzunluğu isə 82 kilometrdir. Yeni yolun qısalması həm də tunellər sayəsində mümkün olacaq. Yolun 34,9-35,4 kilometrliyindəki tunelin uzunluğu 500, hərəkət hissəsinin eni 8 metrdir.

Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunun 15,2 kilometrlik hissəsi hazırdır. Diqqətə çatdırılıb ki, Göygöl və Kəlbəcər rayonlarını birləşdirən yolun Toğanalı-Kəlbəcər hissəsi 56 kilometr, Kəlbəcər-İstisu hissəsi isə 26 kilometr təşkil edir.

Toğanalı-Kəlbəcər yolunun 13-cü kilometrliyindən Murovdağ silsiləsi başlanır və yüksəklik 1700 metrdən 3260 metrə qədər artır. Bu hissədə dünyanın əz uzun avtomobil tunellərindən biri olacaq Murovdağ tunelinin inşası davam etdirilir. 23,4 kilometr uzunluğunda tunel bir istiqamət üzrə 2 hərəkət zolaqlı və 10 metr enində olacaq. Bundan əlavə, 561,2 metr, 626,9 metr, 500 metr və 947,9 metr uzunluğunda 4 tunelin tikintisi də həyata keçirilir. Murovdağ tunelinin daxilində sağ və sol hissələri birləşdirən bağlantı yolların inşası istiqamətində işlər davam etdirilir.

Ümumilikdə Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunun tikintisinin 67,5 faizi tamamlanıb.

Qeyd edək ki, Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolu başlanğıcını Göygöl rayonunun Toğanalı kəndindən götürməklə işğaldan azad edilmiş Kəlbəcər rayonunun ərazisindən keçir. Bu yol bir çox yaşayış məntəqələri ilə yanaşı, rayon mərkəzinə və İstisu ərazisinə qədər rahat gediş-gəlişi təmin edəcək.

***

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər rayonunda Tərtər çayı üzərində yerləşən "AzərEnerji" ASC-nin 22,5 MVt gücündə "Yuxarı Vəng" Su Elektrik Stansiyasının (SES) açılışında iştirak ediblər.

"AzərEnerji" ASC-nin prezidenti Baba Rzayev görülən işlər barədə məlumat verib.

"Yuxarı Vəng" SES Vətən müharibəsində Qələbəmizdən sonra regionda yaradılan ən böyük yaşıl enerji mənbəyidir. Ümumi gücü 40 meqavat olan stansiya azad edilən ərazilərdə 42 meqavatlıq "Zəngilan" SES-dən sonra ikinci böyük layihədir.

"Yuxarı Vəng" SES-ə su iki mənbədən – "Nadirxanlı" SES-in çıxışı və Tutqu çayı üzərində inşa edilən baş suqəbuledici qurğudan daxil olur. Layihə çərçivəsində həyata keçirilən tikinti-quraşdırma işlərində ətraf mühit amilləri nəzərə alınıb. Çay balıqlarının derivasiya borusuna daxil olmasının qarşısının alınması və onların çay ekosistemində saxlanılması üçün xüsusi hidrotexniki qurğular layihələndirilərək tikilib.

Stansiyanın layihəsi "AzərEnerji" ASC-nin Energetika İnstitutu tərəfindən hazırlanıb. Aparılan işlərdə Avstriya və İtaliya şirkətlərinin mütəxəssisləri də iştirak ediblər.

Prezident İlham Əliyev "Yuxarı Vəng" SES-i işə salıb.

***

Prezident İlham Əliyev sentyabrın 2-də Kəlbəcər rayonunda "AzərEnerji" ASC-nin 4,3 MVt gücündə "Zar" Kiçik Su Elektrik Stansiyasının (KSES-in) açılışında iştirak edib və SCADA sistemi vasitəsilə Göygöl rayonunda yeni tikilən 4,1 MVt gücündə "Toğanalı" KSES-in açılışını edib.

Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili"nə töhfə olan "Zar" və "Toğanalı" KSES-lər cəmi bir il ərzində tikilib. Bu elektrik stansiyalarını su ilə təchiz etmək üçün Zar və Kürəkçay çaylarının üzərində ekoloji normalar daxilində baş suqəbuledici qurğular inşa edilib. Hər iki KSES-də ümumilikdə 25 milyon kilovat-saatadək yaşıl enerjinin istehsal olunması nəzərdə tutulur ki, bu da 5,5 milyon kubmetr təbii qaza qənaət edilməsi, 10 min tondan çox karbon emissiyasının qarşısının alınması deməkdir.

Qarabağ və Şərqi Zəngəzurda indiyədək ümumi gücü 270 MVt olan 32 su elektrik stansiyası istismara verilib və bu günədək 492 milyon kilovat-saat sıfır emissiyalı elektrik enerjisi istehsal edilib. Bununla da 110 milyon kubmetr təbii qaza qənaət olunub.

***

Prezident İlham Əliyev Kəlbəcər rayonunun İstisu qəsəbəsində "Azərişıq" ASC-nin 110/35 kV-luq "İstisu" yarımstansiyasının da açılışını edib.




Prezident İlham Əliyevin işğaldan azad edilən əraziləri yaşıl enerji zonasına çevirmək, regionun hidroenerji potensialından səmərəli istifadə etmək barədə tapşırıqlarına əsasən, "AzərEnerji" ASC tərəfindən ümumi gücü 37,5 MVt olan 6 kiçik su elektrik stansiyasının tikintisi üzrə işlərə başlanılıb. Bu stansiyalarının 2025-ci ildə istismara verilməsi nəzərdə tutulur.

"Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov görülən işlər barədə məlumat verib. Bildirilib ki, yarımstansiya "İstisu" sanatoriyasının və "İstisu" mineral su zavodunun elektrik təchizatı məqsədilə inşa edilib. Yeni yarımstansiyanın 110/35 kV-luq "Qorçu" və "Laçın" yarımstansiyaları ilə əlaqələndirilməsi nəticəsində 110 kV-luq dairəvi elektrik təchizatı sxeminin yaradılmasına nail olunacaq.

# Qədim Şəmkir şəhərinin arxeoloji-memarlıq irsi

## Elmi-praktik seminar

"Qədim Şəmkir Şəhəri" Dövlət Tarix-Mədəniyyət Qoruğunda elmi-praktik seminar keçirildi.

"Qədim Şəmkir Şəhərinin arxeoloji-memarlıq irsi: tədqiqi, qorunması və təbliği" mövzusunda tədbir qoruğun və AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun birgə təşkilatçılığı ilə gerçəkləşdi.



Seminar iştirakçıları əvvəlcə qoruğun arxeoloji qazıntı işləri gedən Narınqala hissəsi ilə tanış oldular. Arxeologiya və Antropologiya İnstitutunun əməkdaşı tarix elmləri doktoru Tarix Dostiyev 2006-cı ildən qoruq ərazisində aparılan elmi-tədqiqat işləri və aşkar olunan maddi mədəniyyət nümunələri haqqında ətraflı söhbət açdı. Artefaktların tarixi, istehsal üsulu və məişətdə istifadə qaydaları barədə məlumat verildi.

Daha sonra qoruğun inzibati binasında seminar öz işinə başladı.

Arxeologiya və Antropologiya İnstitutunun direktoru tarix üzrə fəlsəfə doktoru, dosent Fərhad Quliyev qoruqların Azərbaycanın mədəni irs tarixində əhəmiyyətli mövqeyindən, onların qorunması və təbliği məsələlərindən danışdı.

"Qədim Şəmkir Şəhəri" Dövlət Tarix-Mədəniyyət Qoruğunun direktoru Nurlan Həsənov qoruğun yaranması və beşillik fəaliyyəti haqqında danışdı.

Elmi-tədqiqat ekspedisiyasının rəhbəri Tarix Dostiyev arxeoloji qazıntılar zamanı aşkar olunmuş maddi mədəniyyət nümunələrinin qorunması və təbliği yönündə həyata keçirilən layihələri, cari ilin elmi-tədqiqatlarının nəticələrini diqqətə çatdırdı.

Seminarın sonunda iştirakçıları maraqlandıran suallar tarixçilər tərəfindən cavablandırıldı.

**Aləmzar Hüseynova**
**"Qədim Şəmkir Şəhəri" qoruğunun əməkdaşı**

# "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin fondu zənginləşib

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən 6 ədəd maddi mədəniyyət nümunəsi "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinə təhvil verilib.



Nazirliyin mətbuat xidmətindən bildirilib ki, bunlardan 4-ü məzarüstü sənduqə, 2-si isə dibək daşıdır.

Həmin əşyalar 2021-ci ildə Naxçıvanqala yaxınlığında yerləşən Heydər məscidi kompleksinin inşası üçün aparılan qazıntı işləri zamanı tapılıb. Maddi mədəniyyət nümunələri Naxçıvanqalanın tarixinin müəyyənləşdirilməsi və təbliği baxımından əhəmiyyətə malikdir.

# Torpağı Vətən edənlər unudulmur

Lənkəran şəhər Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə "Tariximiz qürurumuzdur" layihəsi çərçivəsində şəhər Mədəniyyət Mərkəzində şəhid əsgər, komando Nicat Nəzərlinin doğum gününə həsr olunan tədbir keçirilib.

Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının müavini Ülviyyə Əliyeva, digər rəsmilər, şəhid ailələrinin üzvləri, müharibə əlilləri, şəhidin təhsil aldığı Lənkəran rayonu Ərəstun Xalıqov adına Rvo kənd tam orta məktəbin müəllim və şagirdləri, ictimaiyyət nümayəndələri tədbirdə iştirak ediblər.

Öncə şəhidin şəxsi əşyalarından və fotolarından ibarət sərgiyə baxış olub. Nicat Nəzərlinin xatirəsinə həsr olunan videoçarx nümayiş etdirilib. Çıxışlarda qeyd olunub ki, şəhidlərin qısa, lakin şərəfli ömrü gələcək nəsillərin vətənpərvər tərbiyəsində xüsusi əhəmiyyət daşıyır. Vətən yolunda canlarını fəda edənlərin xatirəsi hər zaman əziz tutulacaq.

Sonra Heydər Əliyev Mərkəzində fəaliyyət göstərən rəsm studiyasında Nicat Nəzərlinin yağlı boya ilə çəkilmiş portreti şəhidin valideynlərinə təqdim edilib.

Vətənsevərlik ruhunda şeirlər səsləndirilib, ədəbi-bədii kompozisiya nümayiş olunub, mahnılar ifa edilib.





Nicat Mübariz oğlu Nəzərli 22 avqust 2004-cü ildə Lənkəranın Narbağı kəndində anadan olub. Rvo kənd orta məktəbində, Lənkəranda 113 nömrəli texniki peşə məktəbində (indiki Lənkəran peşə liseyi) təhsil alıb.

Hərbi xidmətə gedən Nicat Azərbaycan Ordusunun 2023-cü ilin 19-20 sentyabr tarixlərində Qarabağda həyata keçirdiyi antiterror əməliyyatında iştirak edib. Sentyabrın 19-da şəhidlik zirvəsinə ucalıb.

Dövlət başçısının müvafiq sərəncamları ilə Nicat Nəzərli ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeninə və "Vətən uğrunda" medalına layiq görülüb.

***

Masallı rayon Mərkəzi Kitabxanasında isə Vətən müharibəsinin şəhid çavuşu Namiq Bağırovun doğum günü münasibətilə tədbir keçirilib.

Namiq Bağırov 1984-cü il avqustun 30-da Masallı rayonunun Çaxırlı kəndində dünyaya göz açıb. Vətən müharibəsi zamanı 2020-ci il oktyabrın 6-da Füzulinin azadlığı uğrunda döyüşlərdə şəhid olub.



Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub.

***

Tovuz rayon Nizami adına Mədəniyyət evində yazıçı-publisist, Azərbaycan Yazıçılar Birliyinin üzvü Manya Səxavətqızının şəhidlərə həsr etdiyi "Vətən fədailəri: Tovuz şəhidləri" kitabının təqdimatı keçirilib.

Mərasimdə şəhid ailələri, qazilər, hərbçilər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

"Vətən fədailəri" layihəsinin rəhbəri M.Səxavətqızı və digər çıxış edənlər kitab haqqında fikirlərini bölüşüblər.

Bildirilib ki, təqdimatı keçirilən kitab "Vətən fədailəri" layihəsi üzrə dördüncü nəşrdir. Bu silsilədən Naxçıvan, İmişli və Şəki şəhidlərinə həsr olunmuş kitablar işıq üzü görüb.

# Bölgələrdən müxtəlif səpkili xəbərlər



Masallı rayon Mərkəzi Kitabxanası uşaq şöbəsinin təşkilatçılığı ilə şəhər 4 saylı uşaq bağçasında "nağıl saatı" keçirilib. Tədbirdə uşaq şöbəsinin əməkdaşı balacalara "Göyərçin və qarışqa" nağılını oxuyub. Sonda balaca oxucuların nağıl personajları haqqında sualları cavablandırılıb.

***

Şəki şəhər Bəxtiyar Vahabzadənin Ev-Muzeyi və Şuşa şəhəri Bülbülün Ev-Muzeyi arasında əməkdaşlıq çərçivəsində görüş keçirilib. Görüş Bülbülün Şuşadakı ev-muzeyində təşkil olunub.

Bəxtiyar Vahabzadənin Ev-Muzeyinin direktoru Elşən Zəkəryəbəyli çıxış edərək Bülbülün Azərbaycan musiqi mədəniyyətinin inkişafına verdiyi töhfələrdən söz açıb.

Direktor Xalq şairi Bəxtiyar Vahabzadənin kitabını muzeyə hədiyyə edib.

Şəki şəhər 4 nömrəli Uşaq musiqi məktəbinin müəllimi Bülbülün repertuarından musiqi nömrələrini səsləndirib.




Qeyd edək ki, Bülbülün Şuşadakı ev-muzeyi 1992-ci ildə şəhərin işğalından sonra erməni vandalizminə məruz qalaraq dağıdılıb, talan edilib. Şuşa işğaldan azad olunduqdan sonra ev-muzey bərpa olunub və 2021-ci il avqustun 29-da açılışı keçirilib.

Bəxtiyar Vahabzadənin Şəkidə ev-muzeyi şairin vaxtilə yaşadığı evdə yerləşir. Muzey 31 avqust 2018-ci il tarixində istifadəyə verilib.

***



Şəki şəhər Heydər Əliyev Mərkəzində şəhər MKS-nin 9 nömrəli kitabxana filialı ilə birgə "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində tədbir keçirilib.

Şagirdlərin əl işlərindən ibarət "Təbiəti sevək və qoruyaq!" adlı rəsm və kitab sərgisi təşkil edilib, uşaqlar mövzu ətrafında müxtəlif rəsmlər çəkiblər.

**Hazırladı: N.Məmmədli**

# Azərbaycan teatrının premyerası ilk dəfə Sankt-Peterburq səhnəsində

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında hazırlanan yeni səhnə işi – "İblis və..." tamaşasının premyerası 3-4 sentyabr tarixlərində Sankt-Peterburqda – Aleksandrinski Teatrında keçirilir.

Bu, Azərbaycan teatr tarixində Aleksandrinski Teatrında premyerası keçirilən ilk səhnə əsəridir.

Aleksandrinski Teatrında premyera öncəsi Akademik Milli Dram Teatrının tarixi və yaradıcılıq yolundan bəhs edən foto-sərgi də təşkil edilib.

Yeni səhnə əsərinin quruluşçu rejissoru Dövlət mükafatı laureatı, Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə, quruluşçu rəssamı Əməkdar mədəniyyət işçisi İlham Əsgərov, geyim üzrə rəssamı Vüsal Rəhim, işıq üzrə rəssamı Rafael Həsənov, bəstəkarı Azər Hacıəsgərli, məsləhətçisi Əməkdar mədəniyyət işçisi Azər Turan, rejissor assistentləri Nərmin Həsənova və Ceyran Başarandır.



Hüseyn Cavidin "İblis" faciəsinin motivləri əsasında hazırlanan tamaşanın janrı fəlsəfi-dekonstruktiv metadramdır. Qərbdə də, Şərqdə də çox araşdırılan "İblis" mövzusu Hüseyn Cavid yaradıcılığında Tanrı konsepsiyası ilə özünəməxsus çalarda həll edilib. Onun İnsan, İblis, Tanrı haqqında fikirləri yaradıcılığının böyük daxili qüvvəsi və mahiyyətidir.

Dördpərdəli faciənin (dekonstruksiyada birhissəli metadram) təyinat xətti dəyişərək yalnız Tanrı-İblis və İnsan xətti üzərində köklənir. Qısa desək, "İblis" pyesində ruhunu şeytana satan insanların aqibəti təsvir olunur.

"İblis və…" tamaşasında Xalq artisti Kazım Abdullayev, Əməkdar artistlər Ayşad Məmmədov, Anar Heybətov, Elnar Qarayev, Elşən Cəbrayılov, Vəfa Rzayeva, Elşən Rüstəmov, aktyorlar Ziya Ağa, Elsevər Rəhimov, Elçin Əfəndi, Lalə Süleymanova, Vüsal Mustafayev, Elçin Nurəliyev və Tural İbrahimov iştirak edirlər.

Qeyd edək ki, tamaşanın Akademik Milli Dram Teatrında premyerası 4-6 oktyabr tarixlərinə nəzərdə tutulub.

# "Bəhreynli rəssamların istedadını Bakıda sənətsevərlərlə bölüşməkdən məmnunuq"

Xəbər verdiyimiz kimi, Bakıda Bəhreyn RAK İncəsənət Fondunun təşəbbüsü ilə bu ölkənin rəssamlarının əsərlərindən ibarət sərgi təşkil edilib. Sərgi avqustun 30-da paytaxtdakı "QGallery"də açılıb.



Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Azərbaycan Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov iştirak ediblər.



RAK İncəsənət Fondunun təsisçisi, tanınmış rəssam və kolleksiyaçı Raşid Al-Xalifa çıxış edərək bəhreynli rəssamların istedadlarını Azərbaycandakı sənətsevərlərlə bölüşməkdən məmnunluğunu bildirib. Qeyd edib ki, RAK İncəsənət Fondu beynəlxalq tərəfdaşlığı və qarşılıqlı anlaşmanı təşviq edir. Bu əməkdaşlıqda da məqsəd bəhreynli sənətkarların qobelenlərini Bakının canlı və rəngarəng incəsənət səhnəsinə təqdim etməkdir.

"QGallery"nin təsisçisi, "Azərxalça" ASC-nin sədri Emin Məmmədov deyib ki, rəssam Raşid Al-Xalifa və RAK İncəsənət Fondu ilə əməkdaşlıq incəsənətin, beynəlxalq dostluğun və mədəni anlaşmanın daha geniş təşəkkül tapdığını əks etdirir.

"Bəhreynin müasir incəsənət nümunələrinin ümumi mənzərəsinin Bakıda canlandırılmasından məmnunluq duyuram. İnanıram ki, bu, ölkələrimiz arasında tərəfdaşlıq imkanlarının daha da genişlənməsinə gətirib çıxaracaq", – deyə o əlavə edib.

Qeyd edək ki, bundan əvvəl Heydər Əliyev Mərkəzində Raşid Al-Xalifanın sərgiləri təşkil olunub.

# Akademik Rus Dram Teatrı Rusiyaya qastrola gedib



Azərbaycan Dövlət Akademik Rus Dram Teatrı Rusiya Federasiyası Mədəniyyət Nazirliyinin "Böyük qastrollar" proqramına dəvət alıb.

Teatr sentyabrın 3-dən 8-dək Novokuznetsk və Kemerovo şəhərlərində səfərdə olacaq. Yaradıcı heyət Novokuznetsk Dram Teatrının və A.V.Lunaçarski adına Kuzbass Dram Teatrının səhnələrində Xalq artisti Aleksandr Şarovskinin quruluşunda "Müsyö Jordan və dərviş Məstəli şah" (M.F.Axundzadə) və "Albalı bağı" (A.P.Çexov) tamaşalarını nümayiş etdirəcək.

Bu il 104 yaşı tamam olan Azərbaycan Dövlət Akademik Rus Dram Teatrı Novokuznetskdə, həmçinin "Okna – 2024" Beynəlxalq Sənaye İncəsənəti Festivalına qonaq qismində qatılacaq. Bakılı sənətçilər festivalın açılışında "Müsyö Jordan və dərviş Məstəli şah" tamaşasını göstərəcəklər.

Rusiya Mədəniyyət Nazirliyinin Ümumrusiya qastrol və konsert planı ölkədə vahid qastrol sistemini yenidən yaratmaq üçün nəzərdə tutulub. Plana iki irimiqyaslı federal proqram daxildir: 2014-cü ildə başlayan "Böyük qastrollar" (teatr qastrolları) və 2020-ci ildə Rusiya Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə açılmış "Biz Rusiyayıq" (milli kollektivlərin qastrolları).

Planın tərkib hissəsi olan "Böyük qastrollar" proqramı üzrə həmçinin Rusiya teatrları qonşu ölkələrə səfərə çıxır, eləcə də müxtəlif ölkələrdən teatr kollektivləri Rusiyaya dəvət olunur.

# Gəncədə klassik musiqi gecəsi keçiriləcək

Sentyabrın 24-də Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasında "Bakıdan Gəncəyə" layihəsi çərçivəsində Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının birgə təşkilatçılığı ilə klassik musiqi gecəsi keçiriləcək.




Bu barədə filarmoniyadan məlumat verilib. Bildirilib ki, konsert proqramında Xalq artisti Sevinc İbrahimova, Gəncə Dövlət Filarmoniyasının solistləri Rüstəm Cəfərov, Vasif Bayramov, Elmir Pişnamazzadə, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solistləri Taleh Yahyayev, Günel Hacıyeva, Səma Həmzəyeva Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərlərini ifa edəcəklər.

# Sosial xidmət müəssisəsində konsert

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə Sosial Xidmətlər Agentliyinin paytaxtımızda fəaliyyət göstərən 1 saylı 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər üçün sosial xidmət müəssisəsində konsert proqramı keçirilib.



Tədbirin məqsədi xüsusi qayğıya ehtiyacı olan uşaqların asudə vaxtının səmərəli təşkili və onların sosial adaptasiyasına dəstək olmaqdır.

Müəssisədə xidmət göstərilən 100-ə yaxın uşağın iştirak etdiyi konsertdə tanınmış estrada müğənnisi Rüfət Axundov və digər ifaçılar musiqi nömrələri ilə çıxış ediblər.

Əyləncəli proqram uşaqların sevincinə səbəb olub və onlarda unudulmaz təəssürat yaradıb.

# Sumqayıt səhnəsində yeni mövsüm "Missiya" ilə açılacaq

Sumqayıt Dövlət Dram Teatrı yeni mövsümün açılışını 44 günlük Vətən müharibəsinin qürurunu özündə ehtiva edən iki tamaşa ilə gerçəkləşdirəcək.



20-27 sentyabr tarixlərində nümayiş olunacaq tamaşalardan biri yazıçı-dramaturq Hafiz Ataxanlının "Missiya" mistik qəhrəmanlıq dramıdır. Tamaşaya teatrın baş rejissoru Xalq artisti Firudin Məhərrəmov quruluş verib.

Əməkdar incəsənət xadimi Əli Əmirlinin "Xeyir xəbər" əsəri də açılış günləri üçün nəzərdə tutulub. Tamaşanı gənc rejissor Fuad Cavadzadə hazırlayıb.

Georgi Xuqayevin "Varlı ev" psixoloji dramı isə dövlət sifarişi ilə hazırlanıb. Artıq son məşqlər gedir, dekorasiyalar qurulur. F.Məhərrəmovun quruluş verdiyi tamaşanın ilk nümayişi oktyabrın 5-də olacaq.

Bundan əlavə, teatrda Qərbi Azərbaycan İcmasının sifarişi ilə yazıçı-dramaturq, Əməkdar incəsənət xadimi Hidayət Orucovun "İrəvanda nəyim qaldı" əsəri də səhnəyə (quruluş F.Məhərrəmov) qoyulur. İctimai-siyasi, tarixi-ideoloji yüklü tamaşanın premyerası oktyabrın sonunda keçiriləcək.

Türk dünyasının ünlü yazıçısı Çingiz Aytmatovun "Dəniz kənarı ilə qaçan alabaş" povesti əsasında hazırlanan tamaşanın isə ilin sonu üçün təhvil verilməsi nəzərdə tutulub. Bu tamaşanı da teatrın baş rejissoru hazırlayacaq.

Sumqayıt teatrı yeni mövsümdə də uşaq və yeniyetmələri unutmayacaq. Şarl Perronun "Sehrin gücü" macəra tamaşası hazırlıq prosesindədir. Premyerası oktyabrın ikinci yarısında baş tutacaq. Rejissor Fuad Kazımov yeni layihə üzərində işləyir. Milli Qəhrəman Natiq Qasımova həsr olunmuş monotamaşanın məşqlərinə yaxın günlərdə start veriləcək.

# "Şıxlı" xalçası niyə Avropada başqa adla tanınır?

Azərbaycan Milli Xalça Muzeyinin kolleksiyaları ildən-ilə qiymətli sənət nümunələri ilə zənginləşir. Xəbər verdiyimiz kimi, bu yaxınlarda muzeyin yeni binada fəaliyyətə başlamasının 10 illiyi münasibətilə daha dörd xalça vətənə qaytarılıb. Onlardan biri italiyalı kolleksiyaçı Mirko Kattaidən əldə olunan Qazaxın "Şıxlı" xalçasıdır.



Muzeydən bildirilib ki, bu unikal sənət nümunəsi "Şıxlı" kompozisiyası əsasında bənzərsiz bədii quruluşda toxunub. O, şəkəri rəngli ara sahə və üçhissəli haşiyə zolağından ibarətdir. Qazax qrupunun ən parlaq nümunəsi olan xalçada ara sahənin mərkəzi oxu boyunca ulduz və romb formalı iri göl elementləri əksini tapıb. Köməkçi elementlər kimi kənarları qarmaqlı romb-şəkilli və ulduzu xatırladan həndəsi motivlərdən istifadə edilib. Xovunun yumşaqlığı, həndəsi elementləri, sumağı, yaşılımtıl, açıq-sürməyi tonlar bölgənin toxuculuq ənənəsini özündə yaşadır. Bu xalça nadir nüsxədir və belə bədii quruluşlu xalçalar vaxtilə ölkəmizdən ixrac olunduğu üçün onlara Azərbaycan Milli Xalça Muzeyinin və digər muzeylərimizin kolleksiyalarında rast gəlinmir. Belə möhtəşəm bir sənət nümunəsinin ölkəmizə qaytarılması tarixi, bədii və elmi dəyər baxımından müstəsna əhəmiyyətə malikdir.

Avropa sənətşünasları XIX əsrin sonu – XX əsrin əvvəlinə aid "Şıxlı" xalçasını onun mərkəzində yer alan səkkizguşəli ulduz təsvirinə görə "Star Gazak" ("Qazax ulduzu") adlandırırlar.

Qeyd edək ki, bu cür kompozisiyalı xalçalar Nyu-Yorkun Metropoliten Muzeyi (ABŞ) və Kalqari Universitetinin (Kanada) Nikl Qalereyasında qorunur. Avropalı tədqiqatçılar Maykl Frensis və Robert Pinner bu xalçalar üzərində tədqiqat işləri aparıblar.

Xatırladaq ki, "Şıxlı" xalçası Azərbaycan Milli Xalça Muzeyinə italiyalı kolleksiyaçı Mirko Kattai tərəfindən təqdim olunub.

**Lalə**

# "Valideynlərim xanəndəlik üzrə təhsil almaq istəyimi biləndə sevindilər"

**Uğur sorağında**

Azərbaycan muğam sənəti xalqımızın musiqi dünyasında özünəməxsus yer tutur. Bu sənətin nəsildən-nəslə ötürülərək bu günümüzə gəlib çatmasından görkəmli xanəndələrin müstəsna xidmətləri olub. Muğam ifaçılığının yaşadılması bu gün bu sahədə təhsil alan gənclərdən və onları yetişdirən pedaqoqlardan çox asılıdır.

Ölkəmizdə xanəndəlik sənətinə maraq ildən-ilə artmaqdadır. Bu xüsusda Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin dəstəyi ilə keçirilən müsabiqələrin, festivalların böyük rolu var.

"Uğur sorağında" rubrikasında gənc xanəndə, ötən il keçirilən Uşaq İncəsənət Festivalının qaliblərindən Fatimə Kərimovanı oxucularımıza təqdim edirik

Əslən Laçın rayonunun Daşlı kəndindən olan Fatimə Kərimova 2008-ci ildə Bakıda dünyaya göz açıb. Paytaxtda fəaliyyət göstərən Ağdam rayon 33 nömrəli tam orta məktəbin 11-ci sinif şagirdidir. Eyni zamanda Ağdam rayon Gülablı kənd Uşaq musiqi məktəbində xanəndəlik ixtisası üzrə təhsil alır.

Kiçik yaşlarından musiqiyə həvəs göstərib: "Bir gün musiqi məktəbindən nümayəndələr məktəbimizə gəlib dedilər ki, kim istəyirsə sənət sahəsi üzrə təhsil ala bilər. Mən bu barədə ailəmə məlumat verdim. Onu da deyim ki, atamın çox gözəl səsi və musiqi duyumu var. Babamın da yaxşı səsi olub. Atam uşaq vaxtı xanəndə olmaq istəyib.



Amma bəzi səbəblərə görə bu arzusu reallaşmayıb. Mən bununla bağlı ailəmə deyəndə onlar çox sevindilər və məni musiqi məktəbinə apardılar. Məktəbdə səsimi yoxlayıb bəyəndilər. Beləcə, Ağdam rayon Gülablı kənd Uşaq musiqi məktəbinin xanəndəlik ixtisasına qəbul olundum".

Fatimə ölkəmizdə və xaricdə keçirilən bir sıra müsabiqə və festivallarda iştirak edib, konsertlərdə səhnəyə çıxıb. 2022-ci ildə Heydər Əliyev Fondunun dəstəyi, Mədəniyyət Nazirliyi və Azərbaycan Televiziyasının təşkilatçılığı ilə keçirilən VIII "Muğam" Televiziya Müsabiqəsində iştirak edib. Müsabiqədə uğurla çıxış edərək azyaşlı ifaçılar arasında II yerə layiq görülüb. Gənc ifaçı bu uğurunu ötən il ölkəmizdə keçirilən Uşaq İncəsənət Festivalında da təkrarlayıb: "Uşaq İncəsənət Festivalı mənim üçün uğurlu və yaddaqalan bir müsabiqə oldu. Festivalın bütün mərhələlərindən uğurla keçməyi bacardım. Sonda isə xanəndəlik üzrə 14-17 yaş qrupunda ikinci yerin qalibi oldum. Finalda Əməkdar artist, xanəndə Təyyar Bayramov və iştirakçılarla "Qarabağ" mahnısını oxuduq. Həmin çıxışımızı da heç vaxt unutmayacağam. Çox qürur hissi yaşadım".

Bu ilin 6-9 iyun tarixlərində Türkiyənin İstanbul şəhərində təşkil olunan VI Etnosport Beynəlxalq Mədəniyyət Festivalında Fatimə də Azərbaycan heyəti tərkibində bədii proqramda çıxış edib, ifası alqışlarla qarşılanıb.

Fatimənin müəllimi Habil Məmmədov 10 ildən artıqdır Gülablı kənd Uşaq musiqi məktəbində müəllim işləyir. O, Fatimənin istedadını yüksək qiymətləndirir: "Fatimə 2018-ci ildən məktəbimizdə təhsil alır. İlk dəfə ifasını dinləyəndə onun qeyri-adi səsə malik olduğunu hiss elədim. Səsinin məlahəti və çoxçalarlılığı digər şagirdlərinkindən fərqlənirdi. Mən də ilk gündən onun səsini daha gözəlləşdirən xırdalıqlar etməyə çalışdım. O, bir çox müsabiqələrdə uğurla iştirak edib, yüksək nəticələr qazanıb. Bu ilin iyunun 21-də Beynəlxalq Muğam Mərkəzində "Qarabağın səsi" adlı konsertimiz təşkil edildi. Konsertdə mənimlə birlikdə Fatimə və digər şagirdlərim də çıxış etdilər".

Biz də Fatiməyə sevərək bağlandığı ulu muğam sənətində müvəffəqiyyətlər arzulayırıq.

**Nurəddin**

Vətən fədailəri

# Səngərdən səngərə şəhadət yolu

## "Vətən müharibəsindən sağ qayıtdım, bu dəfə şəhid ola bilərəm..."

Hər bir şəhidimizin həyat hekayəsi yaşanmış acıların, qələbə arzusunun və Vətən sevgisinin birləşdiyi bir tarix salnaməsinin səhifəsidir. O, xalqımızın ruhunun möhkəmliyini, eyni zamanda şəhidlərimizin nə qədər qiymətli olduğunu bizə xatırladır.



"Vətən fədailəri" rubrikasında bu dəfə şəhid kiçik çavuş Mahir Cəfərovun həyat və döyüş yolundan söz açacağıq.

Mahir Asif oğlu Cəfərov 1986-cı il sentyabrın 13-də Ağcabədi rayonunun Sarvanlar kəndində anadan olub. Sarvanlar kənd tam orta məktəbdə oxuyub. Təhsil illərində xalqının tarixini, mədəniyyətini və müstəqillik mücadiləsini dərindən mənimsəmişdi.

Hərbi xidmət zamanı Vətən qarşısında əsgəri borcunu layiqincə yerinə yetirir. Hərbi xidməti başa vurduqdan sonra bir müddət kənd təsərrüfatı ilə məşğul olur. Ancaq hərbiyə olan böyük marağı onun yenidən ordu sıralarına üz tutmasıyla nəticələnir. 2015-ci ildə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi ordu sıralarına qoşulur. 2016-cı ilin Aprel döyüşlərində iştirak edir.

Müharibələr tarix boyu insanların taleyini dəyişdirən, millətlərin gələcəyini müəyyən edən hadisələrdir. Amma bəzi müharibələr yalnız fiziki mübarizənin deyil, həm də böyük bir vətən sevgisinin, fədakarlığın və qəhrəmanlığın əfsanəvi təcəssümüdür. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi də bir qəhrəmanlığın parlaq nümunəsidir. Müharibənin ilk günündən döyüşlərə qatılan Mahir Cəfərov Suqovuşanın azadlığı uğrunda döyüşlərdə böyük qəhrəmanlıq göstərir. Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə "Döyüşdə fərqlənməyə görə" və "Vətən müharibəsi iştirakçısı" medallarına layiq görülür.

Qarabağda Zəfərlə başa çatan müharibədən sonra sırada düşməni doğma yurdumuzdan tamamilə təmizləmək missiyası vardı. Mahir də 2023-cü ilin 19-20 sentyabr tarixlərində Qarabağda həyata keçirilən lokal xarakterli antiterror əməliyyatında iştirak edir. Xocavənd rayonu istiqamətindəki döyüşlərdə sağ qolundan və qarın nahiyəsindən güllə yarası alır. Buna baxmayaraq, yaralı vəziyyətdə döyüşü davam etdirir. Bu zaman düşmənin xain gülləsi Mahirin ürəyinə tuş gəlir. O, çox sevdiyi Vətən yolunda qəhrəmancasına şəhid olur. Doğulduğu Sarvanlar kənd qəbiristanlığında torpağa tapşırılır.

Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilib.



Mahir Cəfərov 2013-cü ildə Aytəkin xanımla ailə həyatı qurub. Həyat yoldaşı həmin günləri belə xatırlayır: "Qardaşımın nişan məclisi idi. Mahir də həmin məclisə qatılanlar arasında idi. Məni orada görüb bəyənmişdi. Bundan sonra öz ailəsini bizə elçiliyə göndərdi. Beləcə, ailə həyatı qurduq. Asif, Rahil və Ceyran adlı övladlarımız dünyaya gəldi. Mahir çox ailəcanlı, ürəyitəmiz, mehriban bir insan idi. Böyüklə böyük, kiçiklə kiçik olmağı bacarırdı".

Aytəkin xanım qeyd edir ki, Mahirlə sonuncu dəfə ötən il sentyabrın 17-də görüşüb: "Evə gəlmişdi. Mənə "Vətən müharibəsindən sağ qayıtdım, ola bilər ki, bu dəfə şəhid olaram. Əgər şəhid olsam, uşaqlar sənə əmanətdir. Onlara həm ana, həm ata olacaqsan", – deyə söylədi. Sabahısı gün Mahirlə telefonla axırıncı dəfə əlaqə saxladıq. Ayın 20-si isə şəhid olduğu xəbərini aldıq".

Şəhidin atası Asif Cəfərov oğlu haqqında qürurla danışır: "Fəxr edirəm ki, belə vətənpərvər övladın atasıyam. O bizim başımızı uca elədi. Baxmayaraq ki, oğul itkisi çox çətindir. Amma çox şükür olsun ki, Mahir kimi igid oğullarımızın sayəsində torpaqlarımız işğaldan azad edildi. Allah bütün şəhidlərimizə rəhmət eləsin".

Döyüş meydanında həyatlarını fəda edən şəhidlər bizlərə bir daha Vətənin necə müqəddəs bir varlıq olduğunu göstərdilər. Onlar üçün Vətən sevgisi şəxsi maraqlardan, qorxu və təhlükələrdən üstün idi. Mahir kimi şəhidlərin qoyduğu iz bizim üçün öyrədici və ilhamverici bir məktəbdir. Onların xatirəsini hər zaman uca tutmaq, qəhrəmanlıqlarını gələcək nəsillərə çatdırmaq hamımızın borcudur.

**Nurəddin**

# "Böyük əcdadların irsi – Üçüncü İntibahın təməli"

## Beynəlxalq konqresdə İslam-türk dünyasından 35 ölkə təmsil olunub

Xəbər verdiyimiz kimi, Özbəkistanda keçirilən "Böyük əcdadların irsi – Üçüncü İntibahın təməli" adlı VIII Beynəlxalq konqresdə ölkəmiz də təmsil olunub.

23-26 avqust tarixlərində təşkil edilən konqresin açılışı Daşkənddə olub, konqres işini Səmərqənddə davam etdirib.

AMEA-dan verilən məlumata görə, konqresdə Azərbaycan da daxil olmaqla 35 ölkədən 300-ə yaxın alim, mütəxəssis və tədqiqatçı iştirak edib.

İştirakçılar arasında İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzinin (IRCICA), İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO), Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY), Beynəlxalq Türk Akademiyası (BTA), Al-Furqan Xeyriyyə Vəqfi, Dünya Müsəlman Liqası və digər beynəlxalq təşkilatların nümayəndələri olub.

Açılış mərasimində Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin beynəlxalq konqresin iştirakçılarına təbrik məktubu oxunub.

Tədbirdə çıxış edən BTA-nın (akademiya Qazaxıstanın paytaxtı Astanada yerləşir – red.) prezidenti akademik Şahin Mustafayev Orta Asiyanın zəngin tarixi və mədəniyyətini araşdırmağa həsr olunmuş konqresin elmi cəmiyyətin birləşdirilməsi üçün əsas platforma rolu oynadığını vurğulayıb. Türk xalqlarının mədəni irsinin qorunması və tədqiqi sahəsində beynəlxalq əməkdaşlığın zəruriliyini qeyd edən Şahin Mustafayev BTA-nın fəaliyyəti çərçivəsində əməkdaşlığın daha da inkişaf etməsi üçün yeni təşəbbüslərdən söz açıb.

Qeyd edək ki, konqresdə plenar seanslar, seminarlar, sərgilər, turlar və "Şərq tərənələri" Beynəlxalq Musiqi Festivalında (Səmərqənd) iştirak da daxil olmaqla geniş elmi və mədəni proqram təqdim edilib.



Akademik Şahin Mustafayevin Özbəkistana səfəri zamanı bu ölkədəki İslam Sivilizasiyası Mərkəzi ilə Beynəlxalq Türk Akademiyası arasında əməkdaşlıq memorandumu imzalanıb. Memorandum elmi məlumat mübadiləsi, kitabxanalar arasında əməkdaşlıq, birgə konfrans və seminarların təşkili, eləcə də müştərək elmi əsərlərin dərc edilməsini nəzərdə tutur.

***

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu Türk dünyası əlyazmalarının tədqiqi şöbəsinin müdiri filologiya elmləri doktoru Aygül Hacıyeva Səmərqənd şəhərində keçirilən "Böyük əcdadların mirası Üçüncü İntibahın əsasıdır" adlı VIII beynəlxalq konqresdə iştirak edib. İnstitutdan bildirilib ki, alim konqresin ikinci günündə "Azərbaycanda türkologiyanın təkamülü: tədqiqatların istiqamətləri və islamlaşmanın təsiri" mövzusunda məruzə ilə çıxış edib.

AMEA-nın Folklor İnstitutu Folklor və yazılı ədəbiyyat şöbəsinin aparıcı elmi işçisi dosent Aynur İbrahimova da beynəlxalq konqresə qatılıb. Alim "Türk dünyasının ortaq mirası – folklor ənənələri" mövzusunda məruzəsini təqdim edib.

Hacı Hüsü – 185

# Şuşadan başlayıb Aşqabadda bitən sənətkar ömrü

İfaçılıq sənətimizin təməl daşını qoyanlardan biri də xanəndə Hacı Hüsü olub. Maraqlı səs tembri ilə seçilən sənətkar mahir ifaçılığı ilə yanaşı, muğamlarımızın təbliği və inkişafına da önəmli töhfələr verib. Bu il görkəmli xanəndənin anadan olmasının 185 illiyidir.

Hacı Hüsü Kərbəlayı Lütfəli oğlu Kazımlı 1839-cu ildə Şuşanın Çölqala məhəlləsində dünyaya göz açıb. Papaqçılıqla məşğul olan atası Şuşada yaxşı usta kimi tanınıb. O, Hüsünün təlim-tərbiyəsinə ciddi fikir verir. Oğlunu ilk olaraq molla məktəbinə qoyur. Bir müddət sonra onun məlahətli səsinin olduğu aşkara çıxır. Şuşada yaratdığı məktəbdə xanəndələr yetişdirən Xarrat Qulu Hüsünün səsini, musiqi duyumunu təkrar-təkrar yoxlayır və bəyənir. O həmin sənət məktəbində böyük həvəslə ifaçılığın sirlərini öyrənir... Hüsü şuşalılar qarşısında ilk dəfə tarzən Mirzə Sadıqcanın müşayiəti ilə "Çahargah" muğamını oxuyur və ifası alqışlarla qarşılanır. Çox keçmir səsinin şöhrəti Azərbaycanın hüdudlarını aşır.

İran hökmdarı Nəsrəddin şah 1880-ci ildə Hacı Hüsünü Təbrizə, oğlunun toyuna dəvət edir. Məşhur İran musiqiçilərinin də çıxış etdiyi toy ziyafəti başa çatanda şah tərəfindən birinci mükafat Hacı Hüsüyə verilir.

Görkəmli musiqişünas, Əməkdar incəsənət xadimi Firidun Şuşinski araşdırmasında yazır: "Azərbaycan vokal sənətinin görkəmli nümayəndəsi olan Hacı Hüsü, sözün həqiqi mənasında, böyük xanəndə olub. O, xanəndəlik sənətində yeni bir dövr açıb. Eyni zamanda bu sənəti yüksək bir məqama çatdırıb. O, nəinki muğam oxumaqda, eyni zamanda milli Azərbaycan musiqisinin bütün sahələrində böyük ustad olub. Qədim xalq musiqisini sonsuz bir məhəbbətlə sevib. Şərq, eləcə də Azərbaycan səhnəsi lirik dramatik, tenor tipli səslər çox görüb. Lakin Şərqdə Hacı Hüsünün səsi kimi hərtərəfli tembr gözəlliyinə malik ikinci bir incə və təravətli səs olmamışdır".





Sevimli müəllimi Xarrat Qulu dünyasını dəyişəndən (1883) sonra Hacı Hüsü tanınmış maarifçi Mir Möhsün Nəvvabla görüşərək ustadının xatirəsini yaşatmaq, musiqi məclisi yaratmaq fikrini ona bildirir. Beləliklə, Şuşada "Musiqişünaslar məclisi"nin əsası qoyulur. Məclisin üzvləri, sadəcə, çalıb-oxumaqla kifayətlənmir, həmçinin muğam sənətini inkişaf etdirir və davamçılarını yetişdirirlər. Bəzi araşdırmalarda oxuyuruq ki, Hacı Hüsü ilk dəfə olaraq Şuşada "Xanəndələr ittifaqı" da yaradıb. Onun üzvləri arasında dövrün tanınmış ifaçılarından Keçəçioğlu Məhəmməd, Malıbəyli Cümşüd, Məşədi İsi, Cabbar Qaryağdıoğlu, Malıbəyli Həmid, Məşədi Məmməd Fərzəliyev və başqaları olub.

Hacı Hüsü həm də görkəmli şair, xeyriyyəçi Xurşidbanu Natəvanın çox hörmət bəslədiyi xanəndələrdən olub. Çox vaxt onun məclislərində yaxından iştirak edib. Tədqiqatlarda qeyd edilir ki, o, şamaxılı Mahmud ağanın və bakılı Məşədi Məlik Mansurovun məclislərinə də tez-tez dəvət edilib.

Hacı Hüsü Şərq klassiklərinin qəzəllərini böyük şövqlə, ilham və məhəbbətlə oxuyub. Bu səbəbdən xalq arasında "gözəllik aşiqi" adı ilə də çağırılıb. Hətta haqqında rəvayətlər də yaranıb. O, muğamlar üzərində günlərlə, həftələrlə çalışar, ifasını təkmilləşdirər, yeni-yeni guşələr və xallar əlavə edərmiş. Mənbələrdə göstərilir ki, o, "Rast", "Şur", "Mahur" və başqa muğamlara maraqlı yeniliklər gətirib. Musiqişünas F.Şuşinski "Qarabağ xanəndələri" kitabında yazır ki, xanəndə "Kürdü" muğamına "Şahnaz"ı əlavə edərək birlikdə "Kürdü-Şahnaz" oxuyub.

Teatr xadimi Əməkdar artist Cəlil bəy Bağdadbəyov "Qarabağ xanəndələri haqqında xatirə" kitabında yazır: "Hacı Hüsü oxuyarkən uzaq məhəllələrdən gəlib bu cazibəli səsə qulaq asardılar. Onun uzun nəfəsi, bənzərsiz zənguləsi var idi...".

Mənbələrdə bildirilir ki, imkanlı bir şuşalı Moskva şəhərində oğluna toy edir. Hacı Hüsü də öz dəstəsi ilə həmin məclisə dəvət olunur. Məclisin maraqlı bir vaxtında xanəndədən "Qarabağ şikəstəsi" oxuması xahiş edilir.

Hacı Hüsü zilə çəkib oxuyur:

*Mən aşiqəm, Qarabağ,*
*Qara salxım, qara bağ,*
*Aləm cənnətə dönsə,*
*Yaddan çıxmaz Qarabağ...*

Xanəndə ifasını başa çatdırır. Məclisdə iştirak edən bir professor ayağa qalxıb deyir:

– Ağalar, biz ömrümüzü musiqiyə həsr etmişik. İnsanda incə, təravətli səs nadir hadisədir. Ancaq xanəndənin səsi inandırıcı deyildir...

Məclisdə qızğın mübahisə olur. Vəziyyəti belə görən məclis sahibi qonaqları sakitləşdirib deyir:

– Mübahisə nəyə lazımdır? Əgər xanəndənin səsinə şübhəniz varsa, yoxlaya bilərsiniz.

Məclisdə əyləşən bir həkim xanəndənin boğazına baxır. Danışmır və sakitcə qayıdıb yerində əyləşir. Hacı Hüsü bir daha alqışlanır...".

Görkəmli sənətkar səsinin coşub-çağlayan vaxtlarında Həcc ziyarətinə gedir. Bundan sonra şəhərdə toy məclislərində oxuması bəzi dindarlar tərəfindən birmənalı qarşılanmır, hətta onu təhdid edənlər də olur... Hacı Hüsü sənətə çox bağlı insan idi və oxumamaq onun üçün ölümə bərabər olardı. Şəhərdə böyük nüfuz sahibi ruhanilərlə üz-üzə gəlmək üçün xeyli vaxt Gövhər ağa məscidində azan çəkir. O, içindəki yanğını minacatla söndürür. Hərdən minbərdə əvvəlki kimi ucadan "Segah" oxuyur. Bəzən də zilə qalxır və zəngulələri ilə hər kəsi kədərləndirir. Günləri xeyli vaxt ziddiyyətli anlarla müşahidə olunur. Bütün bunlara tab gətirə bilməyən Hacı Hüsü Şuşadan getmək qərarına gəlir. Görkəmli sənətkar bir gün yır-yığış edib Türkmənistanın Aşqabad şəhərinə köçür. Lakin onun bu şəhərdə gün-güzəranı heç də yaxşı keçmir. Ehtiyac içində yaşasa da, geriyə qayıda bilmir...

Muğam ifaçılığı tarixində silinməz iz qoyan Hacı Hüsü 1898-ci ildə, 59 yaşında Aşqabadda vəfat edib.

**Savalan Fərəcov**

# "Qala" qoruğu arxeologiya üzrə açıq hava muzeylərinin şəbəkəsinə qoşulub

"Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğu arxeologiya üzrə açıq hava muzeylərinin beynəlxalq şəbəkəsinə – "Experimental Archaeology Collection"a (EXARC) üzv olub.

Bu barədə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsindən bildirilib. "Qala" qoruğu "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi tərəfindən idarə olunur.

Niderlandın Lelistad (Lelystad) şəhərində yerləşən EXARC-ın institusional (təsisat, müəssisə) və fərdi olmaqla 400-dən çox üzvü var. EXARC özü də Beynəlxalq Muzeylər Şurasının tərəfdaşı və Avropa Muzey Təşkilatları Şəbəkəsinin üzvüdür.

"Qala" qoruğunun bu təşkilatda təmsil olunması Azərbaycanın əsrlər boyu məişətinin və yaşam tərzinin, eyni zamanda, tarixinin və mədəniyyətinin beynəlxalq səviyyədə təbliği, həmçinin qoruğun dünyada tanıdılması baxımından əhəmiyyətlidir.




"Qala" qoruğu barədə məlumatlar artıq təşkilatın saytında yerləşdirilib. Məlumatda diqqətə çatdırılır ki, 1988-ci ildə təşkil edilən "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğu eramızdan əvvəl III minillikdən müasir dövrədək Abşeronun Qala kəndində yaşayan əhalinin həyat tərzini, kurqanlar, sərdabələr, yaşayış evləri, qəsr, məscidlər və hamamlar da daxil olmaqla, ərazidə mövcud tarixi abidələri və artefaktları qoruyub-saxlamaq məqsədilə yaradılıb. Burada qədim sənət növləri üzrə emalatxanalar fəaliyyət göstərir.

Qeyd edək ki, 2001-ci ildən üzvlük üçün açıq olan EXARC şəbəkəsində hazırda Avropa ölkələrindən 107 arxeoloji (açıq hava) muzey var.

"40-dan çox ölkədəki üzvlərlə biz bilik, təcrübə və ən yaxşı təcrübə mübadiləsi apardığı güclü dəstək şəbəkəsi təklif edirik. Əgər siz ictimai arxeologiya, eksperimental arxeologiya, qədim bacarıqlar, canlı tarix və ya təfsirlə ciddi maraqlanırsınızsa və ya onunla işləyirsinizsə, özünüzü evinizdəki kimi hiss edəcəksiniz. EXARC elm, muzeylər və ictimaiyyət arasında körpüdür. 400-dən çox üzvlə hər zaman nə etdiyinizi öyrənmək istəyən və ya öyrənmək üçün maraqlı olan kimsə var", – deyə təşkilatın saytında (https://exarc.net/) bildirilir.

EXARC-ın institusional üzvləri arxeoloji (açıq hava) muzeylər, ali təhsil mərkəzləri, qruplar və assosiasiyalardan ibarətdir. Fərdi üzvlər sırasına isə arxeoloqlar, açıq səma altında arxeoloji muzeylərin əməkdaşları, qədim sənətkarlıq və ya tərcümə ilə məşğul olanlar, bu sahədə təhsil alan tələbələr və b. daxildir.

İstənilən şəxs və istənilən təşkilat müvafiq qaydada illik üzvlük haqqı (ölkələrin ÜDM imkanlarına görə təşkilatlar üçün 90-250 avro, fərdi şəxslər üçün 10-70 avro arasında dəyişir) ödəməklə EXARC-a qoşula bilər.

# Milli mesenatın vəfatının bir əsri tamam oldu

## Tağıyev mənəvi dəyərlərimizin dünyaya tanıdılmasına da töhfələr verib

Sentyabrın 1-də Bakı milyonçusu, neft sənayeçisi, xeyriyyəçi, ictimai xadim Hacı Zeynalabdin Tağıyevin (1838–1924) vəfatının 100-cü ildönümü tamam oldu.





Bu münasibətlə Mərdəkanda, Tağıyevin dəfn edildiyi Pir Həsən ziyarətgahında anım tədbiri keçirildi. Milli Azərbaycan Tarixi Muzeyinin (MATM) rəhbərliyi və əməkdaşları, ziyalılar, Mərdəkan qəsəbəsinin sakinləri, tələbə və şagirdlərin iştirak etdiyi tədbirdə əvvəlcə Tağıyevin, qızı Sara xanımın və tanınmış ilahiyyatçı Axund Əbu Turabın məzarları üzərinə gül dəstələri düzüldü.

Muzeyin direktoru akademik Nailə Vəlixanlı H.Z.Tağıyevin vəfatının ildönümü ilə əlaqədar muzey tərəfindən təşkil edilən silsilə tədbirlərdən söz açdı. Prezident İlham Əliyevin imzaladığı müvafiq sərəncama əsasən, böyük xeyriyyəçinin Bakıda heykəlinin ucaldılmasını çox mühüm, hər bir azərbaycanlının ürəyindən xəbər verən addım olduğunu qeyd etdi. Tağıyevin xeyriyyəçilik fəaliyyətindən danışan direktor onun Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin dünyaya tanıdılmasına da töhfələr verdiyini bildirdi.

ADA Universitetinin rektoru professor Hafiz Paşayev Tağıyev ənənələrinin gənc nəslə təbliğ olunmasının əhəmiyyətini vurğuladı. Rektor tələbələrin milli-mənəvi dəyərlərimizi qoruyub yaşadan, xeyriyyəçiliklə məşğul olan tarixi şəxsiyyətləri tanımalarının da önəmli olduğunu dedi.

MATM-ın elmi işlər üzrə direktor müavini tarix elmləri doktoru, dosent Fərhad Cabbarov dövlətimizin Tağıyev irsinə, xüsusilə də onun vaxtilə yaşadığı evə – hazırkı Milli Azərbaycan Tarixi Muzeyinə qayğısından söz açdı. Dedi ki, Tağıyevin çoxcəhətli fəaliyyətinin dərindən tədqiqi, təbliği və müasir gəncliyə yetərincə çatdırılması vacibdir.

F.Cabbarov həmçinin Tağıyevin Azərbaycan iqtisadiyyatının, mədəniyyətinin, təhsilinin inkişafında xidmətləri, onun təşəbbüskarı olduğu ictimai və iqtisadi layihələrin əhəmiyyətini də diqqətə çatdırdı.

Tarix üzrə fəlsəfə doktoru Firdovsiyyə Əhmədova, araşdırmaçı jurnalist, Əməkdar mədəniyyət işçisi Müsəllim Həsənov, musiqişünas, Əməkdar incəsənət xadimi Zemfira Qafarova, şairə Mahcamal Babayeva, dinşünas-alim Soltan Əlizadə və başqaları çıxışlarında məşhur xeyriyyəçi haqqında fikirlərini bölüşdülər.

Müsəllim Həsənov Tağıyev haqqında kitabını xeyriyyəçinin ailəsinə hədiyyə etdi.

Sonda Tağıyevin nəticəsi, filologiya üzrə fəlsəfə doktoru Nazim Abdullayev anım mərasimində iştirak edən hər kəsə təşəkkürünü bildirdi. O, ulu babasının xeyirxah əməlləri ilə nəinki Azərbaycanda, hətta ölkəmizdən kənarda da tanındığını dedi.

Qeyd edək ki, Milli Azərbaycan Tarixi Muzeyi H.Z.Tağıyevin evi olmuş tarixi binada yerləşir. Prezident İlham Əliyevin göstərişi ilə 2007-ci ildən Milli Azərbaycan Tarixi Muzeyində mesenatın xatirə muzeyi də fəaliyyət göstərir. Muzey ölkəmizdə H.Z.Tağıyev irsini araşdıran və onu təbliğ edən əsas elmi və mədəni mərkəzdir. Burada xeyriyyəçiyə aid əşyalar, sənədlər, fotoşəkillər qorunur, onun həyat və fəaliyyəti araşdırılır, əsərlər çap olunur.

**Lalə Azəri**

# Çələbi xanla Nadir şahın görüşü təsviri sənətdə

Azərbaycanın şimal-şərqində yerləşən Şəki mahalı XVI əsrin ortalarında Səfəvilər imperiyasının tərkibinə qatıldıqdan sonra şahın təyin etdiyi məliklər tərəfindən idarə olunurdu. Bu ənənə Nadir şah Əfşarın zamanında da qalmaqda idi. XVIII əsrin 40-cı illərində Şəki Məlik Nəcəf tərəfindən idarə edilirdi. Ancaq Şəkinin sünni əhalisinin vəkili təyin edilmiş Hacı Çələbi ilə Məlik Nəcəf arasında ciddi anlaşılmazlıq hökm sürürdü.

Hacı Çələbi ilə anlaşa bilməyən Məlik Nəcəf Nadir şahın düşərgəsinə gəlir və Hacı Çələbidən şikayət edir. Bundan qəzəblənən Nadir şah Hacı Çələbini hüzuruna çağırtdırır. Onun əmri ilə cəllad kəndiri Hacı Çələbinin boğazına keçirərək onu asmaq istəyir. Fəqət təbiətən cəsur bir insan olan Hacı Çələbi xan boynu kəndirdə ola-ola Nadir şahı bu ittihamın doğru olmadığına inandıra bilir. Hacı Çələbinin əyilməzliyi, məğrur duruşu Nadir şahı tərəddüdə salsa da, vəzirin söylədikləri ilə razılaşır və edam əmrini ləğv edir. Üstəlik, ona yeni səlahiyyətlər də verir.

Hacı Çələbinin qorxmazlığı Nadir şaha dərin təsir etmiş, onu qorxuya salmışdı. Kərim ağa Fateh bu barədə belə yazır: "Şah gecə fikir eləyib, öz əmirlərinə buyurur ki, mənim hüzurumda bir kəsin həddi yoxdur ki, nəfəs çəkə. Şəkili Çələbi nə cürət sahibi imiş ki, boğazında kəndir ola-ola cürət eləyib mənə bəzi ərzlər etdi. Heç sözündə yanılmadı. Əlbəttə, bundan bir xəta gələcək. Mənim zənnim xəta olmaz".

Nadir şahın zənni doğru çıxır. Həmin görüşdən sonra Hacı Çələbi Şəkini müstəqil xanlıq, özünü isə xan elan edir...

Şəki xanı Hacı Çələbinin müstəqil xanlıq yaratmaq uğrunda göstərdiyi qəhrəmanlığın zirvəsi onun Nadir şah Əfşarın qarşısında cəsarətli davranışı hesab olunur. Zamanla Hacı Çələbinin Nadir şahın hüzuruna getməsi tariximizin önəmli bir faktı kimi ədəbiyyat və incəsənətdə öz əksini tapır. Həmin görüş rəssamların diqqətini cəlb edir və "Hacı Çələbi Nadir şahın hüzurunda" mövzusunda rəsm əsərləri işlənir. Həmin əsərlərdən ikisi Şəkidə Rəşid bəy Əfəndiyev adına Tarix-Diyarşünaslıq Muzeyində mühafizə olunur.

1925-ci ildə əsası qoyulmuş, hazırda muzeyin formalaşmasında böyük əməyi olmuş Tarix-Diyarşünaslıq Muzeyinin fondunda Hacı Çələbinin Nadir şahla görüşünü əks etdirən iki fərqli rəsm əsəri mühafizə olunur.

Arxiv materiallarından aydın olur ki, 1975-ci ildə muzey üçün bir sıra rəsmlər və maketlər hazırlanmasına göstəriş verilir. Həmin dövrdə "Çələbi xan Nadir şahın sarayında", "Gələrsən-görərsən" qalasına Nadirin hücumu", "N.Nərimanovun Şəki məscidində çıxışı", "M.F.Axundov M.Ş.Vazehin yanında", "Qədim Şəki bazarı", "Qədim Şəki mədrəsəsi", "Qədim Şəki zorxanası" adlı rəsmlər, M.F.Axundovun Ev-Muzeyinin maketi və s. hazırlanıb muzeyin fonduna daxil edilir.

Yuxarıda adları çəkilən rəsm əsərlərindən ikisi – "Çələbi xan Nadir şahın sarayında" və "Gələrsən-görərsən" qalasına Nadirin hücumu" əsərlərinin müəllifi 9 may 1910-cu il təvəllüdlü Səlman Həsən oğlu Zeynalovdur. Müəllif haqqında geniş məlumat əldə edə bilməsək də, sovet rəssamlarının siyahısında müəllifin adı qeyd olunub.

Səlman Zeynalovun əsəri 1976-cı ildə muzeyin inventar kitabına daxil edilib, qapalı fondda mühafizə olunur. İnventar kitabında rəsm əsərinin dəyəri həmin dövr üçün 1276 manat 89 qəpik göstərilib. 80 x 115 sm ölçüsündə olan əsər kətan üzərində yağlı boya ilə işlənib. Əsərdə Nadir şah taxtda əyləşib, Hacı Çələbi isə onun qarşısında əlində qılınc tutmuş vəziyyətdə təsvir olunub. Şərq saray üslubunu xatırladan rəsmdə şahın yanında iki əyan, arxa hissədə əlində müdafiə rəmzi hesab olunan qalxan tutmuş hərbiçi, Çələbi xanın arxasında isə gözlərini yerə dikmiş bir kişi təsvir edilib. Arxa fonda fəvvarəli hovuz və sülhü tərənnüm edən ağ göyərçinlər, qürur, ucalıq rəmzi hesab olunan sərv ağacları diqqəti çəkir.



Şəki Tarix-Diyarşünaslıq Muzeyinin fonduna 1981-ci ildə eyni mövzuya həsr olunmuş İsmət İsmayılovun "Hacı Çələbi Nadir şahın hüzurunda" adlı əsəri də daxil edilib. 51x72 sm ölçüsündə, kağız üzərində sulu boya ilə işlənmiş monoxrom rəsm işi uzun müddət muzeyin ekspozisiya zalında sərgilənib. Muzeyin inventar kitabında əks olunmuş qeydə görə, əsərin o dövr üçün qiyməti 120 manat imiş.



Əslində, İ.İsmayılovun bu mövzuda iki əsəri mövcuddur. Əsərlərdən biri monoxrom, digəri isə polixrom işlənilib. Müəllifin "Hacı Çələbi Nadir şahın hüzurunda" adlı monoxrom əsəri Tarix-Diyarşünaslıq Muzeyində, polixrom əsəri isə "Minali Butik" hotelində saxlanılır.

İ.İsmayılovun muzeydə saxlanılan əsərində Nadir şah taxtda əyləşmiş vəziyyətdə təsvir olunub. Əsərdə Hacı Çələbi sol əlini qarşıya doğru uzadaraq danışan vəziyyətdə, ayaq üstə əks etdirilib. Bu rəsm insan fiqurlarının çoxluğu və məkanın təbiətdən daha çox təcrid edilməsi ilə seçilir.

Rəssamın eyniadlı polixrom əsəri ölçüsünün nisbətən böyüklüyü və qırmızı rəngin ağırlığı ilə fərqlənir. Hacı Çələbinin Nadir şahın hüzuruna getməsini əks etdirən bu əsərdə həm S.Zeynalovun, həm də İ.İsmayılovun özünün eyni mövzuya həsr etdiyi rəsm əsərlərindən fərqli olaraq səhnə fərqli bir baxış bucağından təsvir olunub. Digər əsərlərdən fərqli olaraq bu rəsm işində Nadir şah sağ, Hacı Çələbi isə sol tərəfdən əks olunub. Görüşün çadırda həyata keçirildiyi hiss olunur. Arxa fonda təbiət mənzərəsi və bir neçə əlavə çadır yer alıb.

İsmət Şirəli oğlu İsmayılov 1924-cü ildə Şəkinin Qudula kəndində anadan olub. Rəssamlıq təhsili almamasına rəğmən məişət janrında qrafik-ağ-qara, monoxrom (sulu boya) texnikada işlədiyi müxtəlif rəsm əsərləri ilə məşhurlaşıb. Şəki İpək Kombinatında parça eskizlərinin yaradıcısı olub, fəaliyyəti yüksək qiymətləndirilib və respublikanın "Əməkdar rəssamı" fəxri adına layiq görülüb. Azərbaycan Rəssamlar İttifaqı (ARİ) Şəki təşkilatının sədri Tahir Həmidlinin verdiyi məlumata görə, təxminən ötən əsrin 70-ci illərində Almaniyada keçirilən sərgidə Şəki İpək Kombinatının istehsalı olan parçalar və İ.İsmayılovun çəkdiyi parça eskizləri də nümayiş olunub. Sərgidən təsirlənən görkəmli rəssam Tahir Salahov Bakıya gələn kimi ittifaqın Şəki təşkilatının yaradılmasının və ipək kombinatının rəssam heyətinin bu ittifaqa üzv qəbul edilməsinin zəruriliyini vurğulayıb. Beləcə, ARİ-nin Şəki təşkilatı yaradılır.

Şəkililərin çoxunun İsmət dayı kimi tanıdığı İ.İsmayılovun Şəki Tarix-Diyarşünaslıq Muzeyində və Şəki Dövlət Rəsm Qalereyasında və şəxsi kolleksiyada peyzaj tipli başqa rəsm əsərləri də mühafizə olunur.

Əsrlər keçib, Hacı Çələbinin Nadir şahla görüşü tarixin silinməz bir parçası kimi qalmaqdadır. Bu görüşü əks etdirən iki fərqli müəllifin üç rəsm əsəri Şəkidə qorunub saxlanılır. Ancaq təəssüf ki, rəsmlərin müəllifləri unudulmaq üzrədir.

Bu il "Hacı Çələbi Nadir şahın hüzurunda" rəsm əsərinin müəllifi İ.İsmayılovun anadan olmasının 100 illiyidir. Bu məqalənin onun yaradıcılığının tədqiqinə diqqət ayrılması baxımından faydalı olacağına ümid edirik.

**Zəminə Rəsulova**
**Şəki "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğunun əməkdaşı**

## Xatirə təqvimi (4 – 7 sentyabr)

### Azərbaycan

**4 sentyabr 2003** – Xalq yazıçısı, ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor Əzizə Məmməd qızı Cəfərzadə (29.12.1921 – 2003) vəfat edib. S.Ə.Şirvani, A.Səhhət, Xətai və başqa görkəmli şəxsiyyətlər haqqında tarixi romanların müəllifidir.

**4 sentyabr 2019** – Prezident İlham Əliyev Azərbaycan xoreoqrafiya məktəbinin tanınmış nümayəndəsi, Xalq artisti Əminə Dilbazinin 100 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.

**4 sentyabr 2021** – Əməkdar mədəniyyət işçisi Nairə Hafiz qızı Sadıxova (21.7.1964 – 2021) vəfat edib. Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzinin direktor müavini işləyib.

**4 sentyabr 2022** – Əməkdar rəssam Asif Hüseyn oğlu Rzayev (Asif Azərelli; 19.7.1946 – 2022) vəfat edib.

**4 sentyabr 2023** – Əməkdar elm xadimi, ədəbiyyatşünas, professor Fəridə Ağaəli qızı Vəlixanova (21.10.1935 – 2023) vəfat edib.

**5 sentyabr 1892** – Tanınmış tarzən, pedaqoq, Xalq artisti Əhmədxan Məmmədrza oğlu Bakıxanov (1892 – 26.3.1973) anadan olub. Azərbaycan Televiziyası və Radiosu Xalq çalğı alətləri ansamblının təşkilatçısı və rəhbəri (hazırda kollektiv onun adını daşıyır) olub.

**5 sentyabr 1935** – Xalq artisti, görkəmli aktyor Siyavuş Məmmədağa oğlu Aslan (1935 – 27.6.2013) anadan olub. Musiqili Komediya, Akademik Dram teatrlarında çalışıb. Teatrla yanaşı, televiziya tamaşalarında ("Evləri köndələn yar", "Yaşıl eynəkli adam"), kinoda ("Əhməd haradadır?", "Romeo mənim qonşumdur", "Yol əhvalatı", "O dünyadan salam" və s.) yaddaqalan obrazlar yaradıb.

**5 sentyabr 1942** – Yazıçı-dramaturq, şair Ramiq Muxtar (Ramiq Muxtar oğlu Nağıyev; 1942 – 21.4.2021) Naxçıvan şəhərində anadan olub.

**5 sentyabr 2022** – Əməkdar incəsənət xadimi, dirijor Fazil Böyükağa oğlu Əliyev (23.6.1945 – 2022) vəfat edib.

**6 sentyabr 1945** – Tanınmış xanəndə Məcid Behbudalı oğlu Behbudov (18.4.1873 – 1945) vəfat edib. Şuşada dünyaya gələn sənətkar Bakıda, Gəncədə opera tamaşalarında çıxış edib. 30-cu illərdə İrəvanda, sonra Qazaxda yaşayıb. Böyük müğənni Rəşid Behbudovun atasıdır.

**6 sentyabr 2015** – Xalq artisti İlham Təvəkkül oğlu Əsgərov (16.7.1958 – 2015) vəfat edib. Akademik Milli Dram Teatrında, televiziya tamaşalarında, filmlərdə ("Doğma sahillər", "Biz qayıdacağıq") maraqlı rollar oynayıb. Filmlərin səsləndirilməsində iştirak edib.

**7 sentyabr 1914** – Teatrşünas və ədəbiyyatşünas, Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü Cəfər Haşım oğlu Cəfərov (1914 – 19.9.1973) Bakıda anadan olub. Yazıçılar İttifaqının məsul katibi, mədəniyyət nazirinin müavini işləyib. "Rejissor sənəti", "Azərbaycan Dram Teatrı" və s. kitabların müəllifidir.

**7 sentyabr 1939** – Şair, tərcüməçi, ssenarist Mənsur Fəxri (Mənsur Fəxri oğlu Vəkilov; 1939–2009) Bakıda anadan olub. "Literaturnıy Azerbaydjan" jurnalının baş redaktoru işləyib. Rus dilində yazıb, Azərbaycan şairlərinin əsərlərini ruscaya tərcümə edib.

**7 sentyabr 2000** – Azərbaycan Respublikasının Nazirlər Kabineti Şəki şəhərində Sabit Rəhmanın ev-muzeyinin yaradılması haqqında qərar qəbul edib. Muzey 2001-ci ilin iyunun 8-də istifadəyə verilib.

### Dünya

**4 sentyabr 1904** – Fransız kinorejissoru Kristian Jak (Christian-Jaque (Maudet; 1904–1994) anadan olub. Filmləri: "Fanfan-zanbaq" (1952, Kann festivalının qalibi), "Qara zanbaq", "Yaşıl saqqal", "Babetta müharibəyə gedir" və s.

**4 sentyabr 1952** – Hind aktyoru Rişi Kapur (1952 – 30.4.2020) anadan olub. Filmləri: "Bobbi", "Qisasçı", "Belə yalançı" və s.

**5 sentyabr 1568** – İtalyan filosofu Tommazo Kampanella (Tommaso Campanella; 1568–1639) anadan olub. Utopik sosializm mövzusunda "Günəş şəhəri" əsərinin müəllifidir.

**5 sentyabr 1912** – Amerika bəstəkarı, avanqard musiqi əsərlərinin müəllifi Con Keyc (John Milton Cage; 1912–1992) anadan olub.

**5 sentyabr 1946** – Əslən iranlı olan Britaniya rok müğənnisi, "Queen" qrupunun lideri Freddi Merkuri (Freddie Mercury – əsl adı Fərrux Balsara; 1946–1991) anadan olub.

**6 sentyabr 1928** – Rus bəstəkarı və dirijoru, SSRİ Xalq artisti Yevgeni Svetlanov (1928-2002) anadan olub.

**6 sentyabr 2007** – Dünyaşöhrətli italyan opera müğənnisi Luçano Pavarotti (Luciano Pavarotti; 12.10.1935 – 2007) vəfat edib.

**7 sentyabr 1870** – Rus yazıçısı Aleksandr İvanoviç Kuprin (1870–1938) anadan olub. "Molox", "Döyüş", "Zamanın təkəri", "Janeta", "Qranat qolbağı" və s. roman-povestlərin müəllifidir.

**7 sentyabr 1907** – Görkəmli türk bəstəkarı, Türkiyə klassik musiqisinin yaradıcılarından Əhməd Adnan Sayqun (1907 – 6.1.1991) anadan olub. "Özsoy" (ilk türk operası), "Koroğlu" operaları, "Yunus Əmrə" oratoriyası və s. əsərlərin müəllifidir.

**7 sentyabr 1909** – Yunan mənşəli Amerika rejissoru Elia Kazan (Elia Kasancoğlu; 1909–2003) İstanbulda anadan olub. İki dəfə "Oskar" laureatıdır: "Centlmen razılaşması" (1947) və "Limanda" (1954).

**Hazırladı: V.Orxan**

# Milli Kitabxanada yubileylərlə bağlı sərgilər

Sentyabrın 2-də tanınmış bəstəkar, Əməkdar incəsənət xadimi İsmayıl Soltan oğlu Hacıbəyovun (1949–2006) anadan olmasının 75-ci ildönümü tamam oldu.

Bu münasibətlə Milli Kitabxanada "Əməkdar incəsənət xadimi İsmayıl Hacıbəyov" adlı kitab sərgisi açılıb.

Sərgidə kitabxananın fondundan bəstəkarın əsərlərinin not yazıları, həyat və yaradıcılığına həsr olunmuş Azərbaycan və rus dillərində ədəbiyyatlar nümayiş olunur.

Qeyd edək ki, görkəmli bəstəkar Soltan Hacıbəyovun ailəsində doğulan İsmayıl Hacıbəyov 1972-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının (indiki BMA) Bəstəkarlıq fakültəsini (professor Qara Qarayevin sinfi) bitirib. O, Azərbaycan musiqi mədəniyyəti tarixinə istedadlı bəstəkar, pedaqoq kimi daxil olub. "Firuzə" operası, "Memorial" kantatası, "Naxışlar" fantaziyası, simfonik orkestr üçün uvertüra, simli kvartet, kamera orkestri, skripka violonçel və orkestr üçün konsertlər, fortepiano və orkestr üçün "Cəngi" rapsodiyası və digər əsərlərin müəllifidir.

Konservatoriyanın professoru olmuş İsmayıl Hacıbəyov ömrünün sonuna kimi bəstəkarlıq və polifoniya üzrə dərs deyib.

***

Milli Kitabxanada hazırlanan digər sərgi Bakı Dövlət Universitetinin (BDU) təsis edilməsinin 105-ci ildönümünə həsr olunub.

1 sentyabr 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti ölkədə ali təhsil müəssisəsinin – BDU-nun yaradılması barədə qərar qəbul edib.

Kitabxanadan bildirilib ki, sərgidə müsəlman Şərqində ilk Avropa tipli ali təhsil ocağının keçdiyi tarixi və şərəfli inkişaf yolundan, BDU-nun məzunu olmuş Ümummilli lider Heydər Əliyevin bu təhsil ocağına xüsusi qayğısından, Prezident İlham Əliyevin dövlət strategiyası əsasında təhsil sahəsində aparılan islahatlardan, müasir Azərbaycanın ali təhsil sisteminin təkmilləşdirilməsində və elmin inkişafında universitetin rolundan və s. bəhs edən monoqrafiyalar, dərsliklər və s. Azərbaycan və müxtəlif dillərdə ədəbiyyatlar nümayiş olunur.

# Antalyada Azərbaycan günündə sərgi də təşkil edilib



Xəbər verdiyimiz kimi, Türkiyədəki səfirliyimizin nəzdində fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi ilə qardaş ölkənin turistik şəhərləri olan Marmaris və Antalyada "Azərbaycan mədəniyyəti və sənəti günü" tədbirləri (29-31 avqust) təşkil olunub.

Bu çərçivədə azərbaycanlı sənətçilərin iştirakı ilə hər iki şəhərdə konsertlər keçirilib.

Layihə üzrə daha bir tədbir Azərbaycanın Türkiyədəki Səfirliyi və Antalya Azərbaycan Mədəniyyət və Həmrəylik Dərnəyinin dəstəyi ilə Antalya şəhərindəki Nazim Hikmət Konqres Mərkəzində açılan "Azərbaycanın təsviri sənəti" sərgisi olub.

Sərgidə rəsm əsərləri ilə yanaşı, "FR Collection" kolleksiyasına aid qadın baş geyimi – ipək kəlağayılar, milli geyimlərimiz nümayiş olunub. UNESCO-da "Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısı"na daxil edilən Azərbaycan kəlağayı sənətinin nümunələri xüsusilə maraqla qarşılanıb.



Tədbirdə qeyd olunub ki, Böyük İpək yolunun Azərbaycandan keçməsi, xarici ölkələrlə ticarət əlaqələri əsrlər öncə ölkəmizdə ipəkçiliyin inkişafına zəmin yaradıb, bu zəmində kəlağayı sənəti də intişar tapıb.

Sərgidə azərbaycanlı qadın rəssamlar Nailə Əhmədova, Aygün Mustafayeva, Ayan Məmmədova-Əzizova, Şəhla Baxşəliyeva-Şendal, Kamilla Eldarova, Xanım Məmmədova, Ülkər Behbudova, Raida Mustafayeva, Leyla İsayeva və Türkiyədə yaşayıb-yaradan rəssamlarımız Nüşabə Küçük və Mətanət Hüseynovanın əl işləri nümayiş olunub.

Antalya valisi Hulusi Şahin, Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov, digər rəsmilər, yerli ictimaiyyət nümayəndələri sərgi ilə tanış olublar.

# "Qaqauz rəngləri"

## "TÜRKSOY-un rəssamlar görüşü" sərgi ilə yekunlaşıb

TÜRKSOY-un ənənəvi layihəsi olan "Rəssamlar görüşü"nün bu il Moldovada, Qaqauz Yeri muxtar bölgəsinin inzibati mərkəzi Komrat şəhərində keçirilməsi barədə xəbər vermişdik. "Qaqauz rəngləri – 2024" rəssamlar görüşü (19-27 avqust) muxtar bölgənin yaradılmasının 30-cu ildönümünə həsr olunub.




Qaqauz Yeri Baş Mədəniyyət İdarəsinin təşkilatçılığı və TÜRKSOY-un dəstəyi ilə gerçəkləşən tədbirin məqsədi Türk dünyası rəssamları arasında təcrübə mübadiləsinə şərait yaratmaq və qaqauz mədəniyyətini rəsmlərin dili ilə tanıtmaqdan ibarət olub.

"Müasir Qaqauz Yeri", "Qaqauz diyarının təbiəti", "Qaqauz xalqının adət-ənənələri" mövzularını əhatə edən sənət görüşünə Qaqauz Yeri, Azərbaycan və Türkiyədən rəssamlar qatılıblar.

Avqustun 29-da Komrat şəhərində layihənin bağlanış mərasimi və rəssamların ərsəyə gətirdikləri əsərlərin (ümumilikdə 39 rəsm) sərgisi keçirilib. Əsərlərdə muxtar bölgənin təbiəti, mədəni irsi və s. əksini tapıb.

Qaqauz Yeri Baş Mədəniyyət İdarəsinin rəisi Marina Semyonova doqquz gün davam edən tədbirin reallaşmasına verdiyi dəstəyə görə TÜRKSOY-un baş katibi Sultan Raevə təşəkkürünü bildirib.

Layihədə iştirak edən rəssamlara diplom və hədiyyələr təqdim edilib.

# Təki sınan qab olsun...

İsrailin Hayfa şəhərindəki Heçt muzeyində ziyarət zamanı bir uşaq 3500 il tarixi olduğu təxmin edilən Tunc dövrünə aid saxsı qabı sındırıb. Bildirilir ki, saxsı vaza muzeydə qoruyucu şüşə arxasında olmayıb.



Qeyd edilir ki, vaza eramızdan əvvəl 2200-1500-cü illərdə hazırlanıb, içində şərab və ya zeytun yağı tökmək üçün nəzərdə tutulub. Bu cür keramika nümunələrinə qazıntılar zamanı tez-tez rast gəlinir, lakin onların əksəriyyəti adətən qırıq vəziyyətdə tapılır. Muzeyin məlumatına görə, bu vaza "xüsusi tapıntı" olub.

Dördyaşlı uşağın atasının sözlərinə görə, onun oğlu içərisində nə olduğunu bilməklə maraqlandığı üçün bir az vazanı əyib.

Muzeyin nümayəndələri bildiriblər ki, bu bədbəxt hadisəyə görə uşaq və onun atası üçün hüquqi təqib olmayacaq. Muzey işçiləri sınmış vazanı bərpa edib sərgiyə qaytarmağa hazırlaşırlar.

# Gənc ifaçımız "Yeni dalğa"da üçüncü olub

Müğənni Anar Ağayev 22-27 avqust tarixlərində Rusiyanın Soçi şəhərində keçirilən gənc ifaçıların "Yeni dalğa – 2024" ("Novaya volna") beynəlxalq musiqi festivalında III yeri tutub.



Müğənni müsabiqədə Murad Arif və Mikayıl Vəkilovun yazdığı mahnıları ifa edib.

Festivalda ifaçıların çıxışını Rusiyanın Xalq artisti İqor Krutoyun sədrliyi ilə Sergey Lazarev, Larisa Dolina, Yuri Antonov, Ani Lorak, Oleq Qazmanov, İqor Matvienko və Anna Astidən ibarət münsiflər heyəti qiymətləndirib.

Anar Ağayevə diplomu təqdim edən Larisa Dolina və Oleq Qazmanov təmsilçimizə uğurlar arzulayıblar. Bakıda doğulan L.Dolina deyib: "Mən çox şadam ki, siz festivalda belə yüksək yer tutmusunuz. Bundan sonrakı sənət yolunuz açıq olsun. Görkəmli Azərbaycan müğənniləri Rəşid Behbudov, Müslüm Maqomayev, Polad Bülbüloğlunun böyük ənənələri var, onların ənənələrini davam etdirin – bu, çox gözəldir".

Qeyd edək ki, Anar Ağayev "Bakı payızı – 2023" milli müsabiqəsinin qalibidir.

"Yeni dalğa" mahnı müsabiqəsi ilk dəfə 2002-ci ildə bəstəkarlar İqor Krutoy və Raymond Paulsun təşəbbüsü ilə keçirilib. Festival 2015-ci ilədək Litvanın Yurmala şəhərində təşkil edilib. Həmin tarixdən festivala Soçi ev sahibliyi edir.

**Lalə**

# Çanaqqalada Mədəniyyət Yolu Festivalı

Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin həyata keçirdiyi Mədəniyyət Yolu Festivalının növbəti, sayca doqquzuncu mərhələsi 31 avqust – 8 sentyabr tarixlərində Çanaqqalada davam edir.




Festivalın burada keçirilən açılış mərasiminə mədəniyyət və turizm nazirinin müavini Batuhan Mumcu, Çanaqqala valisi Ömər Toraman, bələdiyyə başqanının müavini Öznur Benderlioğlu Doğangün, Çanaqqala 18 Mart Universitetinin rektoru Cüneyt Erenoğlu, "Çanaqqala Döyüşləri Gelibolu Tarixi Bölgəsi" açıq hava muzeyinin müdiri İsmayıl Kaşdemir və digər rəsmilər qatılıb.

Anadolu Hamidiye istehkamında gerçəkləşən mərasimdən sonra "Çanaqqala – 1915. Anmaq, anlatmaq" sərgisi ziyarət edilib. Daha sonra Çanaqqalanın müxtəlif bölgələrində açılan sərgi sahələrinə baxış keçirilib.

Rəsmilərin və çoxsaylı vətəndaşların iştirakı ilə Sülh parkından Anadolu Hamidiye istehkamına qədər Çanaqqala Mədəniyyət Yolu yürüşü də olub. Sonda festival çərçivəsində uşaqlar üçün tədbirlər məkanı ziyarət olunub.

Qeyd edək ki, Mədəniyyət Yolu Festivalının doqquz gün davam edən hər mərhələsinin proqramı konsertlərdən teatr tamaşalarına, sərgilərdən sənət görüşlərinədək bir çox istiqamətləri əhatə edir. Çanaqqala proqramına da 50-dən çox məkanda təxminən 500 tədbir daxildir. Bu tədbirlərə minə yaxın sənətçi qatılacaq.

Aprel ayında başlayan festival noyabr ayında sona çatacaq. Festivalın qarşıda daha yeddi mərhələsi (Qaziantep, Ankara, Konya, İstanbul, Diyarbəkir, İzmir, Antalya) var.

Festivalın əsas məqsədlərindən biri ölkənin mədəni zənginliyinin təbliği və tanıdılması ilə turizmin inkişafını da təşviq etməkdir.

Yeri gəlmişkən, 2024-cü ilin ilk yanvar-iyul aylarında Türkiyəyə gələn turistlərin sayı keçən ilin eyni dövrü ilə müqayisədə 8,27% artaraq 28 milyon 978 minə çatıb. Mədəniyyət və Turizm Nazirliyinin açıqladığı məlumata görə, ilin ilk 7 ayında ölkəyə səfər edənlər arasında Rusiya Federasiyası vətəndaşları birinci (3 milyon 611 min), Almaniyadan gələnlər ikinci (3 milyon 503 min) olub. İlk beşlikdə İngiltərə, İran və Bolqarıstandan gələn turistlər də var.

# Rusiyalı rejissorun Azərbaycanda çəkdiyi film Fransada festivalda

30 avqust – 7 sentyabr tarixlərində Fransada 23-cü "Silhouette" ("Siluet") film festivalı keçirilir. Festivalda ölkəmizdə çəkilən "POV Memory" ("POV yaddaşı") filmi də iştirak edir.




Bu barədə məlumat verən filmin prodüseri Emil Nəcəfov bildirib ki, innovativ və yaradıcı qısametrajlı filmlərin nümayiş platforması kimi tanınan bu festival kinorejissorlara işlərini beynəlxalq auditoriyaya təqdim etmək imkanı verir. Bir çox məşhur kinorejissorların karyeralarının ilk addımları bu festivaldan keçib.

Bir hərbçinin həyatından bəhs edən eksperimental filmin ssenari müəllifi, rejissoru və prodüseri rusiyalı İqor Smola, digər prodüserləri Emil Nəcəfov və Şi Şuaidir, operatoru Alisa Tareliçevadır.

Filmdə Asiman Ağa Rövşən, Vüsalə Ağayeva, Ayla Ağayeva, Mahir Əsədov, Arzuman Mirzəsoy, Tamerlan Xəlilov, Konstantin Qriqoryev, Denis Okunev, Anton Klimkin, Elton Hacıyev, Kamal İlham, Dilarə Abdullayeva, Kamal İlham, Teyran İbişov, Elşən Məmmədov, Əli Əliyev, Ramil Baxşəliyev, Samir Rəcəb və Yusif Nağızadə çəkiliblər.

Ekran əsəri indiyə qədər bir sıra beynəlxalq festivallarda iştirak edib.

# Okeanın dibində dağ – 3109 metr

ABŞ-nin Kaliforniya ştatındakı Okeanologiya İnstitutunun mütəxəssisləri Sakit okeanda dünyanın ən hündür sualtı dağını aşkar ediblər.

Məlumata görə, Çili sahillərindən 1448 kilometr məsafədə yerləşən dağın hündürlü 3109 metrdir. Bu, qədim mərcanlar və nadir dəniz növlərinin yer aldığı sualtı dağ silsiləsinin bir hissəsidir.

Müqayisə üçün deyək ki, Azərbaycan ərazisində ən hündür dağ – Bazardüzü (Baş Qafqaz silsiləsi) 4466 metr hündürlüyə malikdir.

Okeanoqraflar hesab edirlər ki, dünyada hündürlüyü 1000 metrdən çox olan ən azı on minlərlə sualtı dağ var. Onlar dünya okeanında bir çox növ canlı və bitkilər üçün yaşayış mühiti təmin edirlər.

# Tarixdə bu gün

## Olaylar, faktlar (5 – 7 sentyabr)

Xronoqraf

### 212 il əvvəl...



**7 sentyabr 1812-ci ildə** Rusiya-Fransa müharibəsində Borodino kəndi yaxınlığında (indiki Moskva vilayətinin Mojaysk rayonunun ərazisində) böyük döyüş olub. İki sərkərdə – Napoleon və Kutuzovun üz-üzə gəldiyi döyüşdə Fransa qoşunları məğlub olub. Napoleonun ordusu 58 min nəfər (o cümlədən 47 general), Rusiya qoşunları 44 min nəfər (o cümlədən 23 general) itki vermişdi.

### 202 il əvvəl...

**7 sentyabr 1822-ci ildə** Portuqaliyanın Cənub Amerikadakı ən böyük müstəmləkəsi olan Braziliya müstəqilliyini elan edib. Ölkə 1889-cu ildə Braziliya Federativ Respublikası, 1891-ci ildə isə Braziliya Birləşmiş Ştatları adını aldı.



### 106 il əvvəl...

**6 sentyabr 1918-ci ildə** Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadənin başçılığı ilə nümayəndə heyəti İstanbulda Osmanlı Sultanı VI Mehmet Vahdettin tərəfindən qəbul edilib. Bu, Xalq Cümhuriyyəti heyətinin ilk xarici səfəri idi. Görüşdə Azərbaycan Xalq Cümhuriyyətinə hərbi yardımın göstərilməsi və Bakının azad olunması əsas mövzu olub.

### 99 il əvvəl...

**7 sentyabr 1925-ci ildə** Vyanada (Avstriya) keçirilən beynəlxalq konfransda Beynəlxalq Cinayət Polisi Komissiyası yaradılıb. 1946-cı ildə qurum İnterpol (Beynəlxalq Polis) adlandırılıb.




### 33 il əvvəl...

**5 sentyabr 1991-ci ildə** Azərbaycan Respublikasının Müdafiə Nazirliyi yaradılıb. Prezident Ayaz Mütəllibovun fərmanı ilə Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin rəisi general-leytenant Valeh Bərşadlı ölkənin ilk müdafiə naziri təyin edilib.

***

**7 sentyabr 1991-ci ildə** erməni təxribatçı dəstələri Dağlıq Qarabağın azərbaycanlı əhalisinə qarşı növbəti terror aktları həyata keçiriblər. İndiki Xocavənd rayonun Tuğ kəndinə silahlı basqın nəticəsində 2 sakin öldürülüb. Xankəndi yaxınlığında sərnişin avtobusunun atəşə tutulması nəticəsində isə 3 azərbaycanlı öldürülüb, 4 nəfər yaralanıb.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5086. **Sifariş:** 2050
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641